**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsində gömrük siyasətinin əhəmiyyəti"

mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

Rzayev Elsevər Elçin

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.f.d. dos Əhmədov Fariz Saleh oğlu**

**Təsdiq edirəm ___________ imza**

**"1" İyun 2019-cu il**

# "Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsində gömrük siyasətinin əhəmiyyəti"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060401 / Dünya İqtisadiyyatı**

**İxtisaslaşma: Beynəlxalq maliyyə və valyuta kredit münasibətləri**

**Qrup: 870**

**Magistrant**

**Rzayev Elsevər Elçin**

**___________________imza**

**Elmi rəhbər**

**i.f.d.,dos. Eyvazov Elçin Təhməz**

**_____________________imza**

**Proqram rəhbəri**

**b.m.,i.ü.f.d Nəcəfova Kəmalə Akif**

**_____________________imza**

**Kafedra müdiri**

**i.e.d., professor Kəlbiyev Yaşar Atakişi**

**_____________________imza**

**BAKI – 2019**

**Importance of customs policy the competitiveness of the Azerbaijani economy**


## Abstract

**The urgency of the research. In modern times, there is no more urgent problem for our economy than the revival of national production, the production of modern competitive products, the world market of produced products, the creation of favorable conditions for domestic producers, and the protection of products from negative external competition.**

**Level of problem and learning level. In Azerbaijan this problem is dedicated to the works of Shakaraliyev, K.F.Heydarov. Experts from foreign scientists are E. Dolan, M. Korden, Russian scientists N.M.Blinov, A.D. Ershov.**

**Purpose and tasks of the research. The purpose of the research is to analyze the foreign economic activity regulation and development of customs policy. The duties of the research: Investigate methods of state regulation of foreign economic activity.**

**Research methods. Theoretical research methods were used in this dissertation.**

**Research information base. The articles of scholars from several countries, who conduct research in the relevant direction, have been used in the dissertation work.**

**The results of the research. Important issues related to the customs policy of Azerbaijan were used in the study of customs policy and many literature on its organization and improvement.**

**Scientific-practical significance of the results. The practical significance of the research is that the findings and recommendations of the research can be used to justify the position of Azerbaijan in the regulation of customs policy, the preparation of the principles of customs tariff definition.**



**Key words: customs service, customs organizations, economic development, customs tariffs.**

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| | **GİRİŞ.........................................................................** | **7** |
| **I FƏSİL.** | **Azərbaycan milli iqtisadiyyatının beynəlxalq ticarət və iqtisadi əlaqələr sisteminə inteqrasiyası...............................** | **12** |
| 1.1. | Xarici iqtisadi əlaqələrin mahiyyəti və məzmunu...................... | 12 |
| 1.2. | Xarici ticarətin inkişafı üzrə dünya təcrübəsinin Azərbaycanın xarici iqtisadi siyasətinin formalaşmasına təsiri......................... | 18 |
| 1.3. | Azərbaycanın milli iqtisadiyyatının əsas sahələrinin beynəlxalq rəqabətqabiliyyətliliyinin inkişaf mərhələləri............................ | 27 |
| **II FƏSİL.** | **Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sahəsində Azərbaycanın gömrük siyasətinin əsas istiqamətləri............** | **35** |
| 2.1. | Gömrük siyasəti - xarici iqtisadi fəaliyyətin əsas amili kimi...... | 35 |
| 2.2. | İxracın stimullaşdırılması üzrə dünya təcrübəsi və Azərbaycan mallarının xarici bazarlara çıxması üçün əlverişli şəraitin yaradılması......................................................................... | 43 |
| 2.3. | Milli təhlükəsizlik maraqlarının qorunmasında gömrük xidmətlərinin təkmilləşmə istiqamətləri ................................ | 50 |
| **III FƏSİL.** | **Azərbaycanda gömrük xidmətlərinin idarə edilməsinin xarici iqtisadi fəaliyyətin tənzimlənməsində rolu ................** | **57** |
| 3.1. | Gömrük sisteminin inkişafı və modernləşdirilməsi yolu ilə iqtisadiyyatın beynəlxalq arenada rəqabətqabiliyyətliliyinin artırılması......................................................................... | 57 |
| 3.2. | Gömrük sisteminin inkişafı və modernləşdirilməsi yolu ilə iqtisadiyyatın beynəlxalq arenada rəqaəbətqabiliyyətliliyinin artırılması......................................................................... | 61 |
| | **NƏTİC VƏ TƏKLİFLƏR........................................................** | **70** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT............................................**<br>**Əlavələr..........................................................................** | **73**<br>**75** |
| | **Cədvəllərin və Şəkillərin siyahısı.........................................** | **88** |

# GİRİŞ

**Tədqiqat mövzusunun aktuallığı.** Müasir dövrdə, çox güman ki, iqtisadiyyatımız üçün milli istehsalın dirçəldilməsindən, müasir rəqabət qabiliyyətli məhsulların istehsalından, ölkədə istehsal olunan məhsulların dünya bazarına çıxarılmasından, yerli istehsalçılara istehsalın inkişafı üçün əlverişli şərait yaratmaqdan, məhsulların mənfi xarici rəqabətdən qorumaqdan daha aktual problem yoxdur. Bunun üçün ən vacib rolu – istehsalın inkişaf etdirilməsinə, yerli istehsalçıların dəstəklənməsinə, istehlak bazarını mənfi xarici məhsullardan

qorumağa yönəlmiş əhəmiyyətli elementlərdən biri - dövlətin səmərəli xarici ticarət siyasəti oynuyur.

Xarici ticarətin inkişaf etdirilməsi və təkmilləşdirilməsi üzrə həyata keçirilən islahatlar respublikamızda ən önəmli istiqamətlərdəndir. Bu səbəbdən dolayı, xarici ticarət siyasətinin işlənilib hazırlanması, prinsiplərin və qanunauyğunluqların təhlil edilməsi böyük əhəmiyyət kəsb edir.

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi probleminin aktuallığı və gömrük siyasətinin inkişafı məsələsinin təşkil edilməsindən əvvəl, bu suallara cavab vermək lazımdır: xarici iqtisadi fəaliyyət nədir və gömrük siyasəti nədir və niyə bu qədər vacibdir? Qeyd etmək lazımdır ki, xarici iqtisadi fəaliyyətin tənzimlənməsi özü iqtisadi fəaliyyətin tərkib hissəsidir, bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyinin tərkib hissəsidir. Ölkənin iqtisadi təhlükəsizliyinin ən vacib komponentləri:

- Bu, Azərbaycan Respublikasının məqsədlərində xüsusi dövlət maraqlarının tanınması;
- Dövlət suverenliyinin və özünü inkişafın mühafizəsi;
- Azərbaycanın beynəlxalq mövqeyi, dünya əmək bölgüsündə, istehsalın ixtisaslaşması və kooperasiyalaşmasında, dünya ticarətində, beynəlxalq maliyyə və bank sistemlərində yeri vəs.

Ölkənin xarici iqtisadi fəaliyyətinin tənzimlənməsi, eləcə də gömrük siyasətinin yaradılması və inkişafı, milli maraqların həyata keçirilməsi və qorunması üçün mexanizmlər yaratmaq, daxili iqtisadiyyatın inkişafı, cəmiyyətin ictimai-siyasi sabitliyinin qorunması yoluyla təmin olunur. Bir ölkənin iqtisadi fəaliyyətinin ən mühüm komponentləri aşağıdakılardır: maliyyə, energetika, hərbi və ya daha dəqiq müdafiə, müdafiə-sənaye, informasiya və ərzaq təhlükəsizliyi.

1990-cı illərdə Azərbaycan Respublikasının gömrük xidməti yalnız əsas vəzifəsi büdcəyə maksimum gəlirin əldə olunmasını təmin etmək məqsədi daşıyarkən, müasir şəraitdə, fiskal məsələlərin prioritetləri öz yerini tənzimləyici funksiyaya verərək, ikinci plana düşür. Hazırkı mərhələdə iqtisadi və gömrük siyasətinin əsas vəzifələrindən biri iqtisadiyyatın istehsal sektorunu inkişaf

etdirmək üçün tarif və qeyri-tarifi tənzimləyici tədbirlərin inteqrasiyalı, çevik və sürətlə tətbiqi mexanizminin inkişaf etdirilməsidir. Bu halda ölkədə baş verən iqtisadi proseslərin dinamikası, həmçinin, Ümumdünya Ticarət Təşkilatının (ÜTT) gümrük tarifləri və qeyri-tarif tənzimlənməsi məsələləri ilə bağlı tələbləri nəzərə alınmalıdır. Burada əsas məsələ gömrük ödənişlərində xüsusi yer tutan balanslaşdırılmış gömrük tarif siyasətinin inkişafıdır. Dəyişən iqtisadi vəziyyət və dünya iqtisadiyyatının çevrilməsi şəraitində Azərbaycan xarici iqtisadi əlaqələr sistemində gömrük rüsumlarının rolunu yenidən nəzərdən keçirməlidir.

Yuxarıda göstərilənlərlə əlaqədar olaraq, xarici iqtisadi fəaliyyətin tənzimlənməsində gömrük rüsumlarının rolunun müəyyənləşdirilməsi, onların rasional istifadəsinin problemlərinin öyrənilməsi elmi və praktiki olaraq tələb olunur.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Gömrük siyasətinin Azərbaycanın beynəlxalq rəqabətqabiliyyətliliyində iqtisadi rolu problemləri, gömrük rüsumlarının iqtisadiyyatda rolu- bir sıra elmi araşdırmaların diqqət mərkəzində olmasına baxmayaraq, iqtisadi inkişafın hazırkı mərhələsinə aid olan bu mövzu hələ kifayət qədər inkişaf etməmişdir. Azərbaycanda bu problemə D.Q.Nuriyev, A.Ş.Şəkərəliyev, K.F.Heydərovun əsərləri həsr olunmuşdur. Xarici elm adamlarının tədqiqatları arasında ən maraqlıları E. Dolan, M.Korden, P.Krugman, F. Lista, rus alimlərindən N.M.Blinov, B.N.Gabriçidze, V.G. Draganov , I.Dyumulen, A.D.Erşov – un əsərləri olmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi xarici iqtisadi fəaliyyətin tənzimlənməsi və gömrük siyasətinin inkişafını təhlil etməkdir. Effektiv şəkildə fəaliyyət göstərən gömrük siyasətinin tənzimlənməsi mexanizmi - ixrac-idxal əmtəə axınlarının strukturunun həcminin artırılması və təkmilləşdirilməsinə və yerli sahibkarların xarici ticarət əməliyyatlarının effektivliyində artımın təmin edilməsinə xidmət göstərən fəal və inteqrasiyalı bir siyasət üçün ön şərtdir. Bu problemin öyrənilməsi gələcək mütəxəssislərin xarici iqtisadi fəaliyyətlə əlaqəli bütün sahələrdə peşəkar fəaliyyətin aparılması üçün lazım olan geniş məlumat və bacarıqların əldə olunmasına imkan verəcəkdir.

Tədqiqat mövzusunun açıqlanması üçün aşağıdakı əsas vəzifələr müəyyənləşdirilir:

- xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi metodlarını araşdırmaq;
- iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin gömrük və tarif siyasətinin xüsusiyyətlərini araşdırmaq;
- dövlət gömrük siyasətinin həyata keçirilməsinin əsas xüsusiyyətlərini müəyyənləşdirmək və təhlil etmək;
- gömrük rüsumlarının və gömrük vergisinin əsas xüsusiyyətlərini araşdırmaq;
- gömrük rüsumlarının ödənilməsi mexanizminin işlənib hazırlanması və onların təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması;
- Azərbaycan Respublikasında gömrük ödənişlərinin dinamikası əsasında iqtisadi əlaqələr sistemində mövcud olan gömrük ödənişlərinin mövcud vəziyyəti ilə milli iqtisadiyyatın obyektiv ehtiyacları arasında ziddiyyətləri araşdırmaq;
- Azərbaycanın ÜTT-yə üzvlüyünün mümkün iqtisadi nəticələrini təhlil etmək;
- Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin gömrük və tarif tənzimlənməsinin təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlamaq.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti xarici iqtisadi fəaliyyət və onuna əlaqəli digər müxtəlif proseslərdir. Predmeti isə xarici iqtisadi fəaliyyətlə əlaqəli yeni nəzəriyyələr, gömrük siyasətinin tənzimlənməsində xarici təcrübələrin öyrənilməsidir.

**Tədqiqat metodları.** Bu dissertasiyada nəzəri tədqiqat metodlarından istifadə olunub. Belə metodlardan biri, müqayisə metodudur ki, o , obyektlər ve gerçək hadisələr arasında oxşarlıq və fərqliliklərin yaradılmasına imkan verən ən ümumi tədqiqat üsullarından biridir. Müqayisə nəticəsində, ümumi olaraq iki və ya bir neçə obyektə xas olan xüsusiyyətlər müəyyən edilir. Müqayisənin səmərəli olması üçün iki əsas tələb yerinə yetirilməlidir:

- Yalnız aralarında müəyyən bir obyektiv ortaq cəhət olan hadisələr müqayisə edilməlidir.

- Obyektlərin idrak edilməsi üçün onların müqayisəsi ən mühüm, vacib xüsusiyyətlərinə görə həyata keçirilməlidir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində müvafiq istiqamətdə tədqiqatlar aparan bir neçə ölkələrin alimlərinin məqalələrindən istifadə olunmuşdur. Bunlara: Smiranov P.V,Udovenka ve başqa alimləri misal göstərmək olar. Azərbaycan üzrə isə: Aslanov H.H,Atakişiyev M.C, Şekereliyev A.Ş ve başqalarının əsərlərindən istifadə edilmişdir.

Eləcədə Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazasından, gömrük işi və xarici iqtisadi fəaliyyətin tənzimlənməsi ilə əlaqədar qanun və hüquqi aktlardan, xarici ölkələrin gömrük orqanlarının internet səhifələrindən, yerli aidiyyatı qurumların web səhifələrindən istifadə olunmuşdur.

**Tədqiqat nəticəsində əldə edilmiş elmi-praktik nəticələr:**

- Tədqiqat işində gömrük siyasəti və onun təşkili, təkmilləşdirilməsi ilə bağlı bir çox ədəbiyyatlardan istifadə edilmiş, Azərbaycanın gömrük siyasəti ilə bağlı mühüm məsələlər önə çıxarılmışdır;
- Prezidentimiz cənab İ.Əliyevin gömrük sisteminin təşkili və inkişaf etdirilməsi ilə bağlı fəaliyyəti, qiymətli tövsiyyələti təhlil edilərək dəyərləndirilmişdir;
- Ölkəmizin gömrük siyasəti ilə bağlı həyata keçirilən strategiyaların nəticələri təhlil edilmiş və mahiyyəti açıqlanmışdır;
- Aparılan gömrük siyasəti nəticəsində xarici iqtisadi fəaliyyətə, idxal-ixrac əməliyyatlarına təsirin nəticəsi qiymətləndirilmişdir;
- Xarici ölkələrin gömrük təşkilatları ilə əməkdaşlığın sayəsində ölkəmizdəki gömrük sisteminin inkişaf istiqamətləri araşdırılmış, beynəlxalq münasibətlərin təsiri dəyərləndirilmişdir.

**Tədqiqatın məhdudiyyətləri.** Müvafiq mövzu üzrə müxtəlif ölkələrin gömrük orqanlarının fəaliyyəti haqqında statistik göstəricilərə girişin məhdudlaşdırılmış olması tədqiqat işinin məhdudiyyətlərinə aid edilir.

**Nəticələrin elmi-praktik əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti budur ki, tədqiqatda hazırlanmış nəticələr və təkliflər gömrük siyasətinin

tənzimlənməsi, gömrük tariflərinin müəyyənləşdirilməsi prinsiplərinin hazırlanması və ölkənin sosial-iqtisadi inkişafına təsirinin qiymətləndirilməsində, həmçinin ÜTT-yə qoşulmaqda Azərbaycanın mövqeyini əsaslandırmaq üçün istifadə edilə bilər.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya işi 3 fəsil, 8 mövzu, giriş, nəticə, təkliflər və ədəbiyyat siyahısından ibarətdir. Həmçinin tədqiqat işində 7 cədvəl və 12 şəkildən istifadə olunmuşdur. Ümumi həcmi isə 90 səhifə təşkil edir.

## Fəsil 1. Azərbaycan milli iqtisadiyyatının beynəlxalq ticarət və iqtisadi əlaqələr sisteminə inteqrasiyası.

### 1.1 Xarici iqtisadi əlaqələrin mahiyyəti və məzmunu.

Azərbaycan iqtisadiyyatının xüsusiyyətləri və ehtiyacları əsas mövqedə olmaqla, bazar münasibətlərinin beynəlmilləşmə prosesləri, qloballaşma, xarici iqtisadi əlaqələrin formalaşması və inkişafının öyrənilməsi iqtisad elmində yeni əsaslı bir istiqamətdir. Hələ ki, bu istiqamət üzrə elmi-metodiki təminat, eləcə də,mal mübadiləsi sahəsində müxtəlif dövlət qurumlarının təsərrüfat subyektləri arasındakı qarşılıqlı təsir mexanizmləri, istehsal amillərinin hərəkəti və beynəlxalq iqtisadi siyasətin formalaşdırılması tam inkişaf etdirilməmişdir.

Xarici iqtisadi münasibətlər istehsal, bölüşdürmə, mübadilə və istehlak ilə bağlı istehsal münasibətlərini əks etdirir, genişlənmiş təkrar istehsalın əsas amili rolunda çıxış edir.

Xarici iqtisadi münasibətlər malların mübadiləsi, iqtisadi yardımın müxtəlif formaları, elmi-texniki əməkdaşlıq, ixtisaslaşma, istehsal korporasiyaları, xidmətlərin göstərilməsi və birgə sahibkarlıq daxil olmaqla xarici, iqtisadi, siyasi və ticari əlaqələri əhatə edir. Həmçinin, xarici iqtisadi fəaliyyət xarici iqtisadi münasibətlərin həyata keçirilməsi prosesidir.

Dünya iqtisadiyyatı (world economy) – dünya ölkələrinin milli iqtisadiyyatlarının məcmusudur. Müasir dövrdə dünya iqtisadiyyatı sistemi bazar iqtisadiyyatı inkişaf etmiş ölkələr və bazar münasibətlərinin formalaşmasının daha az və ya daha çox olduğu ölkələr vasitəsilə təmsil olunur.

Dünya iqtisadiyyatı - dünya infrastrukturunun sürətli inkişaf etməsi ilə əlaqədar olaraq, bu səviyyədə inkişafı mümkün olmuşdur. Dünya iqtisadiyyatı özündə birləşdirir:

- Dünya nəqliyyat sistemi - dəniz, hava, çay, dəmir yolu, yol və boru kəməri. Bundan əlavə, nəqliyyatın hər növü öz qlobal standartlarına və vahid tələblərə malikdir;
- Qlobal mətbuat və kommunikasiya şəbəkələri: radio, televiziya, mətbuat, kommunikasiya, o cümlədən kosmik şəbəkələr;
- Vahid elmi və texniki informasiya sistemi;
- Vahid kommersiya məlumatları sistemi;
- Vahid meteoroloji xidmətlər və informasiyalar sistemi;
- Vahid statistika xidmətinin formalaşdırılması;
- Standartlaşdırma xidmətlərinin inkişafı.

Böyük çətinliklər və ziddiyyətlərə baxmayaraq, dünya iqtisadiyyatının yuxarıda göstərilən bütün komponentləri inkişaf yönündə birbaşa istiqamətləndirilmişdir.

Bazar iqtisadiyyatına keçid prosesində xarici iqtisadi fəaliyyətin əsas

istiqamətləri əhatə edir: sənaye, investisiya, xarici ticarət, elmi- tədqiqat, informasiya, tədris-pedaqogika. Eləcə də, göstərilən bu növlərin də aşağıdakı formaları mövcuddur: elmi-texniki korporasiya və birgə tədqiqat mərkəzlərinin yaradılması; elmi, mühəndis, işçi heyətinin hazırlanması və davamlı yenidənqurulması; ortaq istehsal sahibkarlığı; birbaşa sənaye əlaqələri, sənaye korporasiyaları; müxtəlif formalarda investisiya; xarici ticarət; elmi və mühəndislik məlumatlarının sistemli mübadiləsi; bankçılıq və kreditləşmə; obyektlərin tikintisi; dövlət tənzimlənməsi.

Xarici iqtisadi əlaqələr zamanı subyektlər arasında ixtisaslaşma, sənaye korporasiyası, regional bazarların inkişafı və genişləndirilməsi, təkrar istehsal proseslərinin birgə tənzimlənməsi, istehsalın maddi amillərinin yenidən bölüşdürülməsi və istifadəsi, fərdi istehlak məhsullarının mübadiləsi, birgə investisiya, elm və texnologiyanın istifadəsi, texnoloji inkişaf, əmək miqrasiyası sahəsində obyektiv əlaqələr baş verir və inkişaf etdirilir.

Xarici iqtisadi əlaqələrin makro səviyyədə həyata keçirilməsi mexanizmi beynəlxalq marketinq sistemini və xarici iqtisadi fəaliyyətin təşkili və texnologiyalarını özünə daxil edir. Onun spesifikliyi əsasən milli bazarların xüsusiyyətlərini, habelə dünya üzrə bu və ya digər mal və xidmətlərin bazarlarını öyrənmək üsullarıdır. Burada potensial ixracatçı istehlakçıların tələbatlarını, arzularını və üstünlüklərini, həmçinin bazarın vəziyyəti və perspektivlərini, öz məhsullarını ixrac edə biləcək ölkələrdə həmin bazarın müvafiq seqmentlərini bilməlidirlər. Bunun üçün təkcə fəaliyyət göstərdiyi bazarın təhlili kifayət deyil, eləcə də, makroiqtisadi mühitin vəziyyətini öyrənmək lazımdır. ( Şəkil 1.1)

Xarici iqtisadi əlaqələrin təsnifatı qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müəyyən əlamətlərə əsasən, bu əlaqələrin konkret qruplara bölüşdürülməsi kimi başa düşülməlidir (Şəkil 1). Burada xarici iqtisadi əlaqələrin təsnifləşdirmə sistemi əlaqələrin növləri və formalarından ibarətdir. Xarici iqtisadi əlaqələrin növü ümumi xüsusiyyət, məsələn, əmtəə axınının istiqaməti və struktur xarakteristikası ilə birləşən bir sıra əlaqələrin cəmidir. Malların axını istiqaməti ilə əlaqəli xüsusiyyətlətin təsnifatı malların (xidmətlərin, işlərin) bir ölkədən digərinə

hərəkətini müəyyən edir, yəni ölkədən malların ixracını və ya malların bir ölkəyə gətirilməsini əks etdirir. Bu göstəricilərə əsasən, xarici iqtisadi münasibətlər malların alınması və idxalı ilə bağlı idxala, malların satışına və ixracına görə isə ixraca bölünür. Xarici iqtisadi əlaqələrin təsnifatının struktur xüsusiyyətləri əlaqələrin qrup tərkibini müəyyənləşdirir. Bu, iqtisadi maraq və dövlətin xarici iqtisadi fəaliyyətinin əsas məqsədi ilə bağlıdır. Struktur əsasda isə xarici iqtisadi münasibətlər xarici ticarət, maliyyə, istehsal və investisiya sahələrinə bölünür.

Xarici bazara məhsulların çıxarılması və ya xaricdən əmtəələrin idxal edilməsi üçün reklam metodlarının çevik kombinasiyası, fərdi satışların inkişafı, vasitəçilərin və satıcıların mükafatlandırılması yolu ilə həvəsləndirilməsi tələb olunur.

Bu gün keçid ölkələrinin bir çox hüquqi şəxs və təşkilatları, o cümlədən Azərbaycan, xarici tərəfdaşlarla xarici iqtisadi əlaqələri inkişaf etdirir; təbii sərvətlərdən (neft və qaz hasilatı) istifadə üzrə layihələrin hazırlanmasında, ətraf mühitin qorunması üçün tədbirlərin həyata keçirilməsində iştirak edir; beynəlxalq əlaqələrini genişləndirir və dərinləşdirirlər.

Xarici iqtisadi əlaqələrin sənaye və elmi-texniki formalarda genişləndirilməsi, eləcə də xarici investisiyaların cəlb edilməsi milli iqtisadiyyatın və biznesin inkişafına mühüm töhfədir. Və onlar investisiya prosesinin fəallaşdırılmasına kömək edirlər.

Bazar iqtisadiyyatının inkişafı şəraitində bir çox ölkələrin əsas məqsədi tam formalaşmış müstəqil bir iqtisadiyyata sahib olmaqdır, eyni zamanda qeyd etmək lazımdır ki, tam mükəmməl və müstəqil iqtisadiyyat onun formalaşmasına təsir göstərən xüsusiyyətlərə və amillərə əsaslanaraq, müstəqil formada fəaliyyət göstərə bilər.

Milli iqtisadiyyat fərdi vahidlərlə məhdudlaşan bir iqtisadiyyat olaraq, ölkənin milli xüsusiyyətləri ilə əlaqəli, iqtisadi sistemin qanunlarına əsaslanaraq fəaliyyət göstərir. Müasir şəraitdə milli iqtisadiyyat iqtisadi inkişafın müasir tendensiyaları nəzərə alınmaqla sahibkarlığın bazar modelinin formalaşmasına əsaslanır. Bu əsasda, milli iqtisadiyyat bazar iqtisadiyyatı ölkələrinə xarakterik

olan aşağıdakı ümumi xüsusiyyətləri və nümunələri əhatə edir: mülkiyyət formalarının müxtəlifliyi, sərbəst biznes fəaliyyətinin mövcudluğu, rəqabətin bu və ya digər formasının mövcudluğu, bazar qiymətlərinin mövcudluğu, iqtisadi proseslərin dövlət idarəetməsinin müəyyən bir sisteminin olması və s. Bu kimi ümumi xüsusiyyətlərlə yanaşı, milli iqtisadiyyatın əsaslandığı digər xassələr:

- məhsuldar qüvvələrin inkişaf səviyyəsi;
- təbii ehtiyatların mövcudluğu;
- ölkənin coğrafi mövqeyi;
- milli mentalitet;
- tarixi ənənələr və s.

Bununla yanaşı, müasir inkişaf şəraitində milli iqtisadiyyatın yaranmasına təsir göstərən bir sıra iqtisadi amillər mövcuddur. Bunlar:

- Tarixən istehsalın sektoral, ərazi, təkrar istehsal strukturlarının və bütövlükdə iqtisadiyyatın yaradılması;
- Milli iqtisadiyyatın yaradılması üçün təbii ehtiyatlardan istifadə dərəcəsi;
- Elmi-texniki tərəqqinin səviyyəsi, həcmi, xarakteri və onun həyata keçirilmə dərəcəsi;
- İqtisadi infrastrukturun inkişaf səviyyəsi və müəyyən edilmiş sektoral struktur iqtisadiyyatına uyğunluğunu;
- İqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiya dərəcəsi: bir ölkənin məhsullarının dünya bazarında lider mövqeyini təmin edən xüsusiyyətləri;
- Milli bazarın potensialı, konyunkturun səviyyəsi və bazarın inhisarçılıq dərəcəsi.

Xarici investisiyalar üçün əlverişli investisiya məkanı yaradılacağı təqdirdə, xarici investisiyalar milli iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılmasına öz töhfəsini verir. Yerli sahibkarlara eyni investisiya imkanının verilməməsi, praktiki cəhətdən xaricdən investisiya axınlarına əlverişli şərait yaradılmasına mane olur. Ümumi olaraq, milli biznes agentlərinin mövqeyi investisiya mühitinin göstəricisi hesab olunur. Yerli investisiya hüquqlarının daha

çox inkişaf etməsi, dinamikliyinin və qorunmasının yüksək şəkildə olması, ölkəyə daha çox xarici investorların gəlməsinə şərait yaradır, milli iqtisadiyyatın tamamlanmasına gətirib çıxarır.

Yerli məhsulları transmilli şirkətlər tərəfindən nəzarət edilən bazarlara təşviq edilməsi, Azərbaycan və beynəlxalq təşkilatların tərəfdaş ölkələri ilə münasibətlərdə pul və maliyyə problemlərinin tənzimlənilməsi, Azərbaycanın xarici iqtisadi maraqlarının qorunması üzrə effektiv sistemin formalaşdırılması, ölkəyə əlavə valyuta və investisiya resursları cəlb edilməsi üçün yerli müəssisələrin maşın və avadanlıq, texnologiya və informasiya, kapital, mineral ehtiyatlar üzrə dünya bazarına çıxışının təmin edilməsi zəruridir.

Ölkənin resurs potensialı, əlverişli coğrafi mövqeyi, yaxşı iqlim şəraiti, işçi qüvvəsinin təhsili səviyyəsi ilə bağlı ölkənin müqayisəli üstünlüklərinin təhlil edilməsi onu göstərir ki, respublikamızın digər inkişaf etmiş ölkələrlə müqayisədə iqtisadi və elmi-texniki inkişafından tam olmayan istifadə şəraitində belə, burada beynəlxalq biznesin inkişafı üçün əlverişlik ilkin şərtlər mövcuddur.

Bu gün Azərbaycan dünyanın 125-dən çox ölkəsi ilə ticarət və iqtisadi əlaqələrə malikdir.

Müasir dövrdə ölkəmizdə idxal və ixrac edilən məhsullar kəmiyyət və dəyər baxımından artmağa davam edir. İxracın və idxalın strukturunda ölkənin iqtisadi təhlükəsizliyinə töhfə verən keyfiyyətli dəyişikliklər baş verir.

Azərbaycanda ixrac əmtəələrin strukturu resurs-xammal istiqamətilə xarakterizə olunur və bu məhsullar içərisində neft məhsulları üstünlük təşkil edir. Bu növ məhsulların ixracı xarici ticarət və ümumi olaraq xarici iqtisadi fəaliyyətin əsas strategiyası kimi çıxış edir.

Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi bir sıra mühüm qanunvericilik aktları əsasında həyata keçirilir. 1996-cı ildə Azərbaycan Respublikası Prezidentinin "Xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında" , 1997-ci ildə "Azərbaycan Respublikasının xarici ticarətinin daha da liberallaşdırılması haqqında", "Gömrük tarifləri haqqında" və "Gömrük Məcəlləsi" fərmanları qəbul edilmişdir.

Qəbul edilmiş normativ sənədlər respublikanın xarici ticarət fəaliyyətinin həyata keçirilməsi və tənzimlənməsi üçün əsas prinsipləri müəyyən etmişdir:

- Azərbaycan Respublikasının xarici siyasətinin tərkib hissəsi kimi vahid xarici ticarət siyasəti;
- Xarici ticarətin dövlət tənzimlənməsi və onun həyata keçirilməsinə nəzarət üzrə vahid sistem;
- Milli təhlükəsizlik, siyasi, iqtisadi və hərbi maraqların təmin edilməsi üzrə dövlət məqsədlərinin reallaşdırılması üzrə həyata keçirilən vahid ixrac nəzarəti siyasəti;
- Vahid Gömrük ərazisi;
- Xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin iqtisadi tədbirlərinin prioriteti;
- Xarici ticarətdə iştirakçıların bərabərliyi, aralarındakı əlaqələrdə ayrı-seçkilik olmaması;
- Xarici ticarət fəaliyyətində iştirakçıların hüquqi və qanuni mənafelərinin dövlət tərəfindən qorunması

Məlumdur ki, yerli biznesin inkişafı iqtisadiyyatın inkişaf etməsini tələb edən hər hansı dövlət üçün prioritet istiqamətdir. Bunun reallaşdırılması idxal üzərində gömrük nəzarəti sahəsi də daxil olmaqla, bir sıra problemlərin həlli olmadan mümkün deyildir. Qeyd etmək lazımdır ki, gömrük qaydasında tənzimlənən məsələlər ölkənin milli qanunvericiliyinə daxildir. (Cədvəl 1.1)

Yuxarıdakı cədvəldə gömrük tariflərinin ölkə iqtisadiyyatına təsiri ilə bağlı bir çox formalar göstərilmişdir. Belə ki, gömrük siyasətinin optimallaşdırılmasında gömrük tariflərinin rolu çox önəmlidir. Bununla bağlı olaraq, ölkənin yerli istehsalçılarının qorunması, büdcənin artırılması, gəlirin yenidən bölüşdürülməsi, rəqabət mühitinin yaradılması və ölkənin ödəniş balansının azaldılmasında gömrük tariflərinin təsiri əhəmiyyətli dərəcədə böyükdür. Buna görə də, gömrük işinin təkmilləşdirilməsi üçün bu standartların

beynəlxalq standartlara uyğunlaşdırılması ölkənin beynəlxalq arenada mövqeyinə təsir edəcəkdir.

**1.2 Xarici ticarətin inkişafı üzrə dünya təcrübəsinin Azərbaycanın xarici iqtisadi siyasətinin formalaşmasına təsiri.**

Xarici iqtisadi siyasət dövlətin digər ölkələrlə qarşılıqlı əlaqəsini ifadə edir, iqtisadi əlaqələrinin tənzimlənməsi və inkişaf etdirilməsi istiqamətində görülən işlərin məcmusunu özündə birləşdirir.

Xarici iqtisadi siyasətin effektivliyi ölkənin tədiyyə balansından asılıdır. Tədiyyə balansı və ya ödəniş balansı müəyyən olunmuş vaxt aralığında ölkələr və digər xarici şirkətlərin təsərrüfat subyektləri arasında baş verən bütün iqtisadi əməliyyatlar və onların nəticələrinin sistemli şəkildə qeyd olunduğu iqtisadi sistemdir. Ödəniş balansının əsasında dövlətin iqtisadi siyasətini tənzimləyən müvafiq üsullar seçilir.

Xarici iqtisadi siyasətin əsas məqsədləri:

- Ölkədə istehsalın inkişafı üçün əlverişli şəraitin yaradılması;
- Beynəlxalq səviyyədə istehsalın formalaşdırılması üçün tədbirlərin həyata keçirilməsi;
- Beynəlxalq əmək bölgüsündə ölkənin səmərəli iştirakı;
- Təsərrüfat subyektlərinin fəaliyyətinin həyata keçirilməsində əmək korporasiyaları.

Xarici iqtisadi siyasət ölkə daxilində dövlət siyasəti ilə bölünməz şəkildə bağlıdır. Belə ki, dövlətin maraqlarının qorunması üçün ölkə daxilində bir çox tənzimləyicilər formalaşdırılır. Bu tənzimləyicilər xarici iqtisadi fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərirlər. Bunlara aid etmək olar:

1. İqtisadi təsir vasitələri – dünya arenasında dövlətin iqtisadi maraqlarına əsaslanır və növbəti əlaqələri özündə birləşdirir: bazarda təklif və tələbin qarşılıqlı əlaqəsi, malların, işlərin və xidmətlərin yerli və beynəlxalq qiymətlərinin nisbəti, beynəlxalq səviyyədə istehsal səviyyəsinin nisbəti;
2. Təşkilati və idarəetmə təsir vasitələri - inzibati - komanda xarakteri daşıyırlar, qanunvericilik aktlarının köməyi ilə xarici iqtisadi əlaqələr qurmaq və

genişləndirmək üçün dövlət tədbirlərinə yönəldiliblər. Bunlara aid etmək olar: dövlətin idxal və ixracının lisenziyalaşdırılması, habelə onun fəaliyyətinin müəyyən növləri, gömrük rejimi, valyuta hərəkətinin idarə edilməsi və s.

Dövlətin xarici iqtisadi siyasətinə əsaslanan prinsiplər aşağıdakılardır:

- Bir dəfəlik xarici iqtisadi sazişləri əvəz edəcək daimi xarici iqtisadi əlaqələrin formalaşmasında dövlət yardımı;
- Daxili bazarın qorunması və inkişafının aktivləşdirilməsi;
- Malların ixrac-idxal əməliyyatları üçün əlverişli şərait yaradılması;
- Beynəlxalq siyasətdə xarici iqtisadi siyasətin ölkənin ayrılmaz bir hissəsi kimi təqdim edilməsi.

Dövlətin xarici iqtisadi siyasəti zaman və məkan baxımından nəzərdən keçirilə bilər. Birinci halda, həm indiki zamanda, həm də uzunmüddətli perspektivdə ölkənin xarici iqtisadi əlaqələrin yaradılmasına yönəltdiyi fəaliyyətini müəyyənləşdirir. Nəticədə, xarici iqtisadi siyasət ölkədə mövcud vəziyyəti tənzimləmək və fəaliyyətlərin uzunmüddətli planlaşdırılmasına istiqamətləndirilmişdir. Xarici iqtisadi siyasət ölkənin qlobal iqtisadi mühitdə dəyişən tendensiyalara sürətli adaptasiya olunmasında özünü göstərir. Uzun müddətli xarici iqtisadi siyasət ölkənin planlarını qloballaşdırmaq və gələcəkdə problemlərin həllinə yönəlmişdir. (Heydərov K.F ,,1998.səh 156 ).

Məkan aspekti isə ölkənin dünya bazarına təsiri göstərməsinə görə xarici iqtisadi siyasət üzrə fəaliyyətlərini nəzərdə tutur. Bu vəziyyətdə təsir vasitələri aşağıdakılardır:

- Xarici ticarət siyasəti - vergilər, subsidiyalar, məhdudiyyətlər, kreditlər və s. vasitəsilə ticarətə təsir;
- Xarici investisiya siyasəti - ixrac və idxal sərmayələrinin tənzimlənməsi;
- Valyuta siyasəti - ölkədə və xaricdəki valyuta əlaqələrinin tənzimlənməsi;
- Gömrük siyasəti - ixracın və idxalın həcminin və şərtlərinin tənzimlənməsi.

Tarixən dövlətlərin iki növ xarici iqtisadi siyasəti var: azad ticarət və proteksionizm. Proteksionist xarici iqtisadi siyasət daxili bazarın xarici rəqiblərdən

qorunmasına yönəlmişdir. Eləcə də ölkədə sahibkarlığın inkişafına təkar verir, ancaq ölkə daxilinə texnologiyaların daxil olmasını məhdudlaşdırır. Proteksionizm siyasəti idxal olunan mallara vergi tətbiq edilməsinə və yerli istehsal məhsullarına isə vergi qoyulmasının azaldılmasına istiqamətləndirilmişdir.

Xarici iqtisadi proteksionizm siyasəti aşağıdakı üsullara əsaslanır:

1. Tarif üsulları. Bu gömrük rüsumlarının tətbiqi və tənzimlənməsindən ibarətdir. Gömrük tarifləri ixrac və ya idxal olunan mallara tətbiq edilən rüsumların siyahısıdır. Belə vergilər ölkənin büdcəsinin artırılması, yerli istehsalçının qorunması və malların idxalının və ixracının tənzimlənməsinə xidmət edir.
2. Qeyri-tarif rüsumları. Bu cür üsullar ölkənin büdcəsinin artırılmasını nəzərdə tutmur, lakin ticarət fəaliyyətini tənzimləyən bir vasitədir. Bunlara daxildir:

2.1 inzibati tədbirlər : lisenziyalaşdırma, sertifikatlaşdırma;

2.2 texniki tədbirlər: keyfiyyət standartları, etiketləmə və nəzarət;

2.3 iqtisadi tədbirlər: valyuta axınının idarə edilməsi, ƏDV, qiymətə nəzarət və daha çox.

Azad xarici iqtisadi siyasət - ölkələrin rəqabət üstünlüklərinə əsaslanan ticarət əlaqələrində tam sərbəstlik verən siyasətdir. Belə siyasət, ticarət fəaliyyətinin dövlət fəaliyyətindən tam ayrılmasını nəzərdə tutur. Həm də qlobal iqtisadiyyatda resursların səmərəli bölüşdürülməsinə imkan yaradır. Burada mübət aspektlər hesab olunur:

- Daxili bazarda rəqabətin artması ilə, daxili monopoliyanın məhdudlaşdırılması;
- Yerli istehsalçıların fəaliyyətlərinin stimullaşdırılması;
- Malların çeşidinin genişləndirilməsi;
- Tələb və təklifin uzlaşmasına əsaslanan qiymətlər.

Bu günə qədər xarici iqtisadi fəaliyyətin təşkili, ixrac-idxal əməliyyatları, xarici ticarət əməliyyatları və sazişlərin texniki tərtibatı məsələləri böyük əhəmiyyət kəsb etmişdir. Bununla bağlı olaraq, xarici ölkələrin xarici ticarət siyasətində ixrac-idxal əməliyyatlarının tənzimlənməsi təcrübəsini müzakirə edək.

Optimal xarici ticarət fəaliyyətini müəyyən etmək üçün dünya təcrübəsindən istifadə etmək məqsədəuyğun hesab olunur. Belə ki, iqtisadi ədəbiyyatda xarici ticarətin inkişafı üçün 2 model var: ixrac yönümlü və idxal yönümlü. (Şəkərəliyev A.Ş" 2003 səh 100).

İlk model xarici ölkələrdə xarici ticarətin inkişafının müəyyən malların və müvafiq beynəlxalq ixtisaslaşmanın ixracına əsaslandığını özündə əks etdirir. Bununla bağlı olaraq, demək olar ki, dövlət üçün böyük əhəmiyyət kəsb edən məsələ texniki cəhətdən daha mürəkkəb məhsulların ixracına keçiddir. Bu məqsədlərin həyata keçirilməsi üçün istehsalın inkişafı, texniki tərəqqi, istehsal olunan malların çeşidinin genişləndirilməsi, işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması beynəlxalq ixtisaslaşmaya yönəldilir.

İkinci model isə daxili bazarın təchiz edilməsinin inkişafı ilə əlaqədar olub, beynəlxalq sənaye ixtisaslaşması və əməkdaşlığına əsaslanır. Bu istiqamətdə böyük maraq xarici ticarətin inkişafı üzrə Çin üsulunun yaradılmasına səbəb olub.

"Çin" modeli xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsində böyük əhəmiyyətə malikdir. Bu model ölkənin iqtisadi inkişafında mühüm rol oynayır və tamamilə daxili iqtisadiyyatdan asılıdır. Xarici iqtisadi fəaliyyətin inkişafı "inkişaf etməkdə olan inkişaf" yolunda olan bir ölkə nümunəsini göstərir.

Çin tərəfindən aparılan siyasətin xarakterik xüsusiyyətləri xarici iqtisadi liberallaşma tədbirlərinin yalnız milli maraqlara cavab verən dərəcədə həyata keçirilməsidir. Liberallaşdırmada prioritet, ən başlıcası, Çində istehsal olunmayan xammal, texniki cəhətdən inkişaf etmiş məhsullardır. Çində xarici ticarətin aktiv taktikası ölkənin maddi ehtiyatlarının istifadəsinin və bölüşdürülməsinin səmərəliliyini artırdı, iqtisadiyyatın davamlı artımını əhəmiyyətli dərəcədə stimullaşdırdı. Ümumiyyətlə, Çinin xarici ticarətinin böyüməsinin səbəbləri ticarət şərtlərinin mərkəzləşdirilməsidir və yüngülləşməsidir.

Çin hökuməti uzun zamandır ki, yerli istehsalın dəstəklənməsinə və qorunmasına təkan verir. Çinin ÜTT-yə üzvlüyündən əvvəl, onların idxal rüsumları dünyada ən yüksək hesab edilmişdir. Həmin dövrdə malların keyfiyyətə uyğunluğu, ətraf mühitin çirklənməsinin qarşısının alınması səviyyəsi və s. üçün

müxtəlif inzibati tələblər var idi. Hətta indi belə, Çin ÜTT-yə üzv olduğu və sənaye məhsullarının idxal rüsumunun orta səviyyəsini 8,7% -dək azaltdığı müddətdə də, müəyyən mal növlərinə görə ödənişlər yüksək səviyyədədir: avtomobil üçün - 25-45%, rəngli televizorlar, videomaqintafonlar üçün - 30 %.

Çinin ixrac siyasətində ixracat istehsalına dövlət dəstəyi mexanizmi (böyük güzəştlər və dövlətin kredit verməsi) daxildir və aşağıdakı tədbirləri əhatə edir:

- Xarici ticarət qurumlarına maliyyə müstəqilliyini təmin etmək;
- İxrac məhsullarını istehsal edən müəssisələrə kreditlər vermək və dəstəkləmək;
- İxrac məhsullarının istehsalı üçün resursların ayrılması;
- Gömrük rüsumlarından azad edilməsi;
- Hazır məhsul ticarətində müxtəlif növlərinin istifadəsinin təşviqi.

Xarici ticarətin inkişafında "Kanada-Avstraliya" modeli təbii ehtiyatlar ixracatının və kənd təsərrüfatı xammalının istifadəsi ilə izah olunur. Kanada öz sənaye potensialını sürətlə artırır və ixracat strukturunu maşın və avadanlıqlar da daxil olmaqla hazır məhsulların payını artırmaq istiqamətində dəyişir. Ölkənin xarici ticarət fəaliyyətini intensiv şəkildə inkişaf etdirmək üçün Kanada hökuməti məhsulların irəliləyişi və ixrac bazarının inkişafı üzrə proqram qəbul etmişdir. Kanada xarici ticarət strategiyası bu proqramlarda nəzərdə tutulan prinsiplərə və metodlara əsaslanır. Məsələn, məhsulların inkişafı üzrə proqram, hökumətin prioritet sahələrin məhsullarını subsidiyalaşdıraraq, ixracatın tənzimlənməsi və dəstəklənməsi üzrə alətlərini nəzərdə tutur.

“ Fars körfəzi ölkələri” modeli ölkənin sosial-iqtisadi inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən dəyərli resursların məhdud sayda ixracına istiqamətlənməsi ilə xarakterizə olunur. Belə resursların istehsalı və ixracı bütün iqtisadiyyatın əsas mahiyyətini təşkil edir, əhalinin yüksək həyat səviyyəsinin təşkil edilməsi və emaledici sənayenin bir neçə sahəsinin inkişafı üçün vəsaitlərin cəlb edilməsinə imkan yaradır.

"Çin" modeli və " Fars körfəzi ölkələrinin" modeli ölkənin inkişaf etmiş çoxşaxəli sənayesi, geosiyasi mövqeyi və siyasi rejimi olduğu halda istifadə

edilməsi münasibdir. "Kanada-Avstraliya" modeli malların xarici bazarlarda irəlilədilməsi və ixracatda hazır məhsulların payını artırmaq üçün xüsusi bir taktika ilə fərqlənir. Bu model ölkənin xarici ticarətinin inkişafında daha çox balanslaşdırılmış növüdür.

Xarici ticarət ABŞ iqtisadiyyatında mühüm rol oynayır və onun inkişafında ən ciddi amil ixrac hesab olunur. Tarixən, ABŞ iqtisadiyyatı liberalizmlə yanaşı, yerli sənayenin qorunması üçün xarici mallara tarif və qeyri-tarif məhdudiyyətlər tətbiq edən, qapalı iqtisadiyyat nümunəsi olmuşdur.

ABŞ-ın hazırkı xarici ticarət strategiyası "azad ticarət" doktrinasına əsaslanaraq, müxtəlif ticarət və siyasi vasitələrdən istifadə etməyə imkan verir. ABŞ-ın ticarət siyasətində əsas məqsədi amerikan ixracı və milli bazarın xarici rəqabətdən qorunması üçün yeni bazarların açılmasını özündə birləşdirir.

**Cədvəl 1.2 ABŞ-ın xarici ticarət tərəfdaşları**

| Ölkə | Kanada | İngiltərə | Niderland | Çin | Meksika | Fransa | Almaniya |
|---|---|---|---|---|---|---|---|
| İdxal | 259,2 | 51,5 | 38,6 | 116 | 223,3 | 30,9 | 48,6 |
| İxrac | 274,5 | 48.4 | 15,9 | 461 | 289 | 44,4 | 107 |

**Mənbə**:( vestifinance.ru 2016 cı il)

Yuxarıdakı şəkillərdən göründüyü kimi, ABŞ-ın əsas ticarət tərəfdaşları dünyanın ən inkişaf etmiş ölkələridir. 2016-cı ildə ABŞ 1,32 trilyon dollar ixrac edib və 2,12 trilyon dollar idxal edib ki, bu da 791 milyard dollar mənfi ticarət balansına gətirib çıxarmışdır. 2016-cı ildə ABŞ-ın ÜDMi 18,6 trilyon dollar, adambaşına düşən ÜDM isə 57,6 min dollar təşkil etmişdir. ABŞ-ın ən yaxşı ixracat sahələri bunlar təşkil edir: təyyarələr, helikopterlər və ya kosmik (59,2 milyard dollar), neft məhsulları ($ 57,3 milyard), maşınlar (55,1 milyard dollar), Qaz türbinləri (45,8 milyard dollar) və inteqral sxemlər ($38,3 milyard dollar). Ən çox idxal olunan məhsullar isə avtomobillər (172 milyard dollar), xam neft (99 milyard dollar), kompyuterlər (86,5 milyard dollar), paketlenmiş dərmanlar (68,1 milyard dollar) və maşın hissələri (66,9 milyard dollar) təşkil edir.

Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi iqtisadi və inzibati formaların köməyi ilə həyata keçirilir. İxracın və idxalın tənzimlənməsi üçün inzibati və iqtisadi üsulların müxtəlifliyi xarici iqtisadi proseslərin inkişafına olduqca səmərəli təsir göstərə bilər.

Ucuz maliyyə qaynarlarını əldə etməyə imkan verən maliyyə yardımı və ixrac krediti sistemi yerli istehsalçıların dəstəklənməsində mühüm rol oynayır. Bu məqsədlə, dövlət tərəfindən dəstəklənən ixrac maliyyələşdirilməsi və ixrac krediti sığortası üçün həvəsləndirmə sistemlərinin tətbiq edilməsi üçün dünyada bir çox ölkənin təcrübəsindən istifadə edilməlidir. Belə ki, bu gün ixrac kredit agentlikləri dünyanın 70-dən çox ölkəsində, o cümlədən Şərqi Avropa ölkələrinin (Polşa, Macarıstan) demək olar ki, hamısında fəaliyyət göstərir. Bundan əlavə, ixrac və sığorta maliyyə təşkilatlarının müxtəlif təşkilati və hüquqi formalara malik ola bilər, məsələn, Böyük Britaniyada ixrac kreditlərinin qarantiyası üzrə dövlət departamenti, ABŞ-da ixrac-idxal bankı, Almaniyada "Hermes" özəl şirkəti, Fransada "COFACE" yarı dövlət şirkəti, İtaliyada Milli Sığorta İnstitutunda "SACHE" təşkilatı, Polşada ixrac kreditlərinin sığorta şirkəti və s.

Müasir dövrdə ölkələrin qlobal iqtisadi şəraitə düzgün inteqrasiyası üçün sənaye siyasəti mexanizmlərindən düzgün istifadə olunmalı və beynəlxalq arenada uyğun mövqe tutulması gərəkdir. Qloballaşmanın yeni iqtisadi şəraitində vacib xüsusiyyət odur ki, sənaye siyasəti şaquli formada inkişafdan, horizontal formada inkişafa keçid alır. Bu "Avropa Birliyi" ölkələrinin sənaye siyasətinə xas olan cəhətdir. Burada, müəssisələrin yeni şəraitdə struktur dəyişikliklərinə uyğunlaşa bilməsi üçün çevik qanunvericilik, onun ilkin şərtlərinin infrastrukturunun yaradılması nəzərdə tutulur. ( files.preslib.az 2018 ci il).

Xarici ticarətin tənzimlənməsi siyasətinin prioritetləri Azərbaycan qanunvericiliyinin qlobal ticarət tənzimləmə sisteminin normalarına uyğunlaşması kontekstində qərar verilməli olan problemləri əhatə etməlidir. Azərbaycan müəssisələrinin beynəlxalq rəqabət qabiliyyətinin gücləndirilməsi və onları xarici rəqabət mühitindən süni şəkildə təcrid edilməməsi hökumətin əsas vəzifələrindən biri olmalıdır. Rəqabətqabiliyyətinin inkişafı üzrə iqtisadi siyasət iqtisadiyyatın ən

müasir və dinamik sahələrində davamlı rəqabət üstünlüyü yaratmaq məqsədi ilə aktiv saxlanılmalıdır. Bu, müasir elmi-texniki tərəqqi, yeni məhsulların yaradılması və beynəlxalq marketinqin müasir texnologiyalarının tətbiqi ilə bağlı olan rəqabət qabiliyyətli amillərini stimullaşdırmaq üçün vacibdir.

Dünya təcrübəsində ixrac məhsullarına dövlət dəstəyi tədbirləri də önəmli yer tutur. Belə ki, dövlətin kredit verməsi zamanı aşağı faiz dərəcələri və kreditlərin uzadılması müddətləri kimi mexanizmlər sayəsində ixrac edilən məhsulların rəqabət qabiliyyəti artır.

Ölkəmizdə ixrac istiqamətli strategiyanın tətbiq edilməsi zamanı istehlak bazarlarının tələbatının nəzərə alınması üstün tutulmalıdır. Qlobal satış bazarları müəyyən bir dərəcədə istehsalçı ölkələr arasında bölüşdürülüb, lakin burada vəziyyəti dəyişmək üçün ölkəmizdə yüksək rəqabətqabiliyyətli məhsullar istehsal edilməlidir.

Qlobal dünyada mal və kapitalın tirajının daha çox payı almaq istəyən ölkələr yeni strategiyalar hazırlayırlar. Bu strategiyalardan biri də "Sərbəst zona tətbiqləri" – dir. Sərbəst zona tətbiqləri inkişaf etməkdə olan ölkələr baxımından beynəlxalq ticarət və investisiya imkanlarından daha səmərəli istifadə edilməyə və əlavə məşğulluq sahələri yaratmağa fürsət verir. Sərbəst zona tətbiqləri, hüquqi çərçivədə ölkələr arasında fərqlilik göstərməklə bərabər, gömrük prosedurlarının dayandırıldığı və investisiyaların müxtəlif dərəcədə təşviqinə səbəb olan özəl zonalardır. (Азербайджан на международной арене – files.preslib.az).

Böyük ticarət mərkəzlərinə yaxın ticarət yolları üzərində qurulan ticarət koloniyalarının "Sərbəst zona" və ya "Qeyri-gömrük bölgəsi" halına gətirilməsi ilə meydana gələn sərbəst zonalar, iqtisadi inkişaf məqsədilə müxtəlif model və adlar altında sərbəst ticarət və istehsal zonası olaraq dünyada tanınmağa başlamışdır.

Fərqli ölkələrdə sərbəst zonalara diqqət yetirsək görərik ki, burada ümumi ortaq cəhətlərlə yanaşı, ölkələrin iqtisadi və ticarət siyasətləri, eyni zamanda sosial-siyası vəziyyətlərinə görə bəzi fərqliliklər mövcuddur. Sərbəst zonalarla yanaşı praktikada xüsusi iqtisadi zona termini də yer alır. Sərbəst zonaların okeana çıxışı mütləqdir, lakin xüsusi zonalarda belə tələb formalaşmamışdır. Həmçinin, sətbəst

zonalarda gəlir vergisindən azad olma, bəzi önəmli təşviqlər də üstünlük təşkil edir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi və iqtisadi imkanları da ölkədə sərbəst və ya özəl iqtisadi zonaların yaradılmasına imkan verir. Bununla bağlı ilk addım, 2007-ci il də atılmışdır. Azərbaycan Respublikasının Prezidentinin " Azərbaycan Respublikasında özəl iqtisadi zonaların yaradılması haqqında" fərmanı ilə Azərbaycanın xarici dövlətlərlə ticarət münasibətlərinin və xalqın rifahının yüksəldilməsi, gəlirin bölüşdürülməsi və bölgələrarasında taraz şəkildə iqtisadi inkişafa dəstək olmaq məqsədilə özəl iqtisadi zonaların yaradılması qanuni təşkil edilmişdir.

Bir çox ölkədə fəaliyyət göstərən sərbəst və özəl iqtisadi zonaların Azərbaycanda da qurulması, ölkənin Dünya ticarət təşkilatına üzvlüyünə və qloballaşan dünyaya inteqrasiyasına, qeyri-neft sektorunun inkişafına və xarici ticarət həcminin artmasına təkan verecəkdir. Əlbəttə ki, xüsusi iqtisadi zonaların yaradılması üçün vergilərin, gömrük və nəqliyyat tariflərinin azaldılması ilə qeyri-neft sektoruna daha çox xarici investisiyalar cəlb etmək olar. Belə zonaların qurulması bazarda rəqabət mühitinə, mal və xidmətlərin istehsalına, yeni iş yerlərinin açılmasına, bununla da iqtisadi inkişafa mühüm təsir göstərəcəkdir.

Azərbaycanda özəl zonaların qurulması, ölkənin qeyri-neft sektoru ilə bağlı ixrac edə bilməsi üçün lazım olan investisiya və istehsalın artmasına; qeyri-neft sektorunun xarici investisiya və texnoloji daxilolmaları təmin edərək ümumi xarici ticarət həcmini artırmasına; xarici maliyyə və ticarət imkanlarından daha çox istifadə edilməsinə; ixracat sənayelərin inkişafını təmin etmək məqsədilə ixracatı artırmasına; ölkəyə xarici valyutanın daxil olmasını artırmasına; yeni iş imkanları yaradaraq məşğulluq probleminin həll olunmasına; inkişaf etmiş istehsal və idarəetmə texnikaları ölkəyə gətirərək iqtisadi standartların yüksəldilməsinə imkan verəcəkdir.

## 1.3 Azərbaycanın milli iqtisadiyyatının əsas sahələrinin beynəlxalq rəqabətqabiliyyətliliyinin inkişaf mərhələləri.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra suveren hüquqlardan istifadə etməyə və müstəqil iqtisadi siyasət aparmağa başladı. Bu fəaliyyətin əsas məqsədi mülkiyyətin müxtəlif formalarına, bazar münasibətlərinə keçməyə və dünya iqtisadiyyatına inteqrasiyaya əsaslanan iqtisadi sistemin yaradılmasından ibarətdir.

Müstəqillik əldə edildikdən bu günə qədər iqtisadi inkişaf iki əsas mərhələyə bölünə bilər. Birincisi, 1991-1995 illəri əhatə edən xaos dövrü, ikincisi isə 1996-cı ildə başlayan və bu günə qədər davam edən iqtisadi stabillik və davamiyyətli iqtisadi inkişaf periodudur.

Dövlət müstəqilliyinin bərpasından sonra qısa müddət ərzində qeydə alınan çətin başlanğıc nöqtəsinə baxmayaraq, ölkəmizin lideri H.Əliyevin müdrik siyasəti sayəsində, sosial-iqtisadi inkişafda və beynəlxalq iqtisadi sisteminə inteqrasiyada böyük uğurlar əldə edilmişdir. Ən böyük nailiyyət isə müstəqil dövlət quruculuğu prosesi nəticəsində yeni model - inkişaf və iqtisadi islahat modeli - Azərbaycan modeli yaradılması olmuşdur.

Mədəni, əxlaqi, elmi və iqtisadi potensiala sahib olan ölkəmiz əlverişli coğrafi və siyasi mövqeyə,eyni zamanda təbii sərvətlərə malik olması ilə seçilir. Təbii ehtiyatlar içərisində neft xüsusi rola malikdir. Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin əminliyi, qətiyyətliliyi, məqsədliliyi və qlobal, genişmiqyaslı və hərtərəfli iqtisadi siyasətin nəticəsində neft əsl sahibinə Azərbaycan xalqına məxsusdur və siyasi müstəqillik, iqtisadi tərəqqi və xalqın rifahının gücləndirilməsinə xidmət edir.

Dövlət energetika siyasətinin formalaşdırılması və neft-qaz kompleksinin və inkişaf perpektivlərinin effektiv idarə olunması tarixi irsin və fəaliyyət nəticələrinin diqqətli və səmərəli öyrənilməsi, istehsal prosesinin bütün səviyyələri və iqtisadi komponentlərinin sistemli təhlili əsasında mövcud vəziyyətin hərtərəfli və real qiymətləndirilməsi olmadan mümkün deyildir.

Belə ki, iqtisadi struktur, sosial-siyasi və iqtisadi sistemlər, sənaye istehsalının inkişafı, texnika, texnologiya və elmin inkişafı, iqtisadi, istehsal münasibətləri və

məhsuldar qüvvələrin xarakteri Azərbaycanda neft hasilatının inkişafını 4 dövrə ayırır:

- Birinci dövr – ilk neft haqqında qeydin yaranmasından XIX-cu əsrin ortalarına qədər olan vaxtı əhatə edir və neftlə əlaqəli istehlakçı münasibətləri ilə xarakterizə olunur.
- İkinci dövr - neft istehsalına xaotik və sistemsiz bir yanaşma ilə xarakterizə edilən sənaye istehsalının (XIX əsrin ortası - 1920-ci il) erkən mərhələsi;
- Üçüncü dövr - 1920-ci ildən 1991-ci ilə qədər olan periodu əhatə edir. İstehsalın planlaşdırılması əsasında, neft hasilatının inkişafı üçün elmi, texniki və texnoloji cəhətdən səmərəli proqramların kifayət dərəcədə geniş istifadə edilməsi ilə xarakterizə olunur;
- Dördüncü dövr - ölkənin milli və geosiyasi maraqlarının nəzərə alınması ilə, iqtisadiyyatın bazar prinsiplərinə əsaslanan, neft hasilatının intensiv inkişafının hazırkı dövrünü əhatə edir.

Xəzər dənizində neft çıxarmaq üçün ilk cəhdlər 19-cu əsrə aiddir. Mərkəzi Dövlət Tarix Arxivində Balaxanı, Suraxanı, Bibi-Heybət və Abşeron yarımadasının sahillərində neft hasilatı haqqında məlumat verən, 1825-ci il tarixli “ Neft qaynaqları siyahısı” saxlanılır. Bu sənəddə 0,5 metr dərinliyində olan, biri sahildən 18 metr, digəri 30 metr məsafədə yerləşən iki neft quyusunun Bakı sakini Hacı Qasımbəyə aid olduğu göstərilir.

İkinci dövr ilk məhsuldar neft quyusunun mexaniki üsulla qazılmasından başlayaraq neft hasilatının inkişafının erkən mərhələsini əhatə edir.

Ölkəmizdə neft sənayesinin inkişafının üçüncü dövrü Azərbaycanda Sovet hakimiyyətinin qurulması, özəl neft yataqlarının müsadirə edilməsi və bütün sənayenin milliləşdirilməsi ilə başlamışdır. Bu dövrdə neft sənayesinin milliləşdirilməsi üzrə fərman qəbul edildi, bir çox özəl şirkət və firmalar ləğv edildi.

Neft hasilatının dördüncü mərhələsinin başlanğıcı Sovet İttifaqının dağılması ilə əlaqədar ölkədə yaşanan sosial-siyasi vəziyyətin ağırlaşması ilə nəticələnmişdir

ki, bu da köhnəlmiş iqtisadi sistemlərin və mexanizmlərin dağılmasına səbəb olmuşdur.

Xəzər dənizinin Azərbaycan sahilindəki Azəri, Çıraq və Günəşli yatağının inkişafı ilə bağlı xarici neft şirkətləri ilə ilk müqavilənin 20 sentyabr 1994-cü ildə imzalanması tarixi əhəmiyyətli bir hadisə oldu və ölkənin xarici və daxili siyasətinin bütün sahələrinə təsir etdi. Əslində, bu, müstəqil Azərbaycanın ilk beynəlxalq iqtisadi sənədidir, məqsədyönlü və uzaqgörən bir siyasətin nəticəsi idi ki, bu da respublikanın iqtisadiyyatına aşağıdakı formada təsir göstərir:

- neft-qaz sənayesinə və ölkənin infrastrukturuna kapital xərcləri şəklində əhəmiyyətli investisiyaların təmin edilməsi;
- ölkənin neft-qaz sənayesinin uzun tarixi boyu yaradılan istehsal potensialı və maddi-texniki bazadan tam istifadə edilməsi;
- beynəlxalq təcrübəyə uyğun olaraq dərin yataqların işlənməsi üçün yeni texnologiya və texnologiyanı cəlb edilməsi;
- ölkə əhalisinin və iqtisadiyyatın təbii qaz ehtiyacının tam təmin edilməsi, idxalın dayandırılması , bölgənin digər ölkələrinə və Avropaya təbii qazın ixrac edilməyə başlanılması və s.

Aşağıdakı şəkildən göründüyü kimi, Azərbaycanda 10 il ərzində ümumi neft hasilatı 3353 mlrd. barrel olmuşdur. 2015-ci ildə Azərbaycanda neft hasilatı 1.04% azalaraq 41.6 mln. tonadək azalmışdır. 2017-ci ildə isə bu rəqəm 38,7 mln. ton olmuşdur.

**Şəkil 1.4 2006-2017-ci illər ərzində Azərbaycanda ümumi neft hasilatı (mln, ton).**




**Mənbə**: (stat.gov.az)

Sənaye ölkənin iqtisadiyyatının ən inkişaf etmiş sahələrindən biridir. Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin yorulmaz işi sayəsində ötən əsrin ortalarından etibarən maşınqayırma, metallurgiya, yanacaq və enerji, kimya, ərzaq və digər sənaye sahələrini əhatə edən bu mühüm sahənin inkişafı başlamışdır. Sənayenin çevik inkişaf etməsinin təmin edilməsi üzrə ölkə iqtisadiyyatında bir çox islahatlar reallaşdırılmış, kompleks proqramlar hazırlanmışdır. Bütün bunların nəticəsində yeni sənaye müəssisələri, əsasən maşınqayırma kompleksi, kimya və neft kimya sferası, əlvan metallurgiya, texniki təmir və yenidənqurma, bununla yanaşı olaraq, metallurgiya, energetika və digər sənayelərin miqyasının böyüdülməsi prosesi başlandı.

Son illərdə respublikada sənaye potensialının modernləşdirilməsi üzrə aparılan işlər aydın görünür. Dövlət istehsal güclərinin təmərküzləşməsi üzrə yeni tətbiqlər reallaşdırır: ölkədə sənaye parkları və biznes inkubatorları işlənilib hazırlanır. Biznes inkubatorlar İKT sektorunun inkişafı, yüksək texnologiyalı istehsal və ya innovasiya xidmətləri, elmi- tədqiqat, kənd təsərrüfatı, sənaye, xidmət və s. sahələrin inkişaf etdirilməsi üzrə biznes fikirlərini özündə cəmləşdirir. Respublikanın Prezidenti İ.Əliyev tərəfindən 2014-cü ilin "Sənaye ili" adlandırılması da bu sahədə görülən işlərin bariz nümunəsidir. Bu, həmçinin iqtisadiyyatın sənayeləşdirilməsi baxımından vacib amil olmuşdur.

20-ci əsrin 60-cı illərində ölkə iqtisadiyyatının vacib sferalarında olan kənd təsərrüfatı tənəzzül vəziyyətində idi. Bununla bağlı olaraq, görülən işlərdə buraxılmış səhvləri ləğv etmək, eləcə də təsərrüfatın bütün səviyyələrində nizam-intizamın gücləndirmək, xüsusilə də bu işlərlə bağlı kadrların üzərində tələbkarlığı artırmaq məqsədilə ciddi tədbirlər görüldü. Bu işlərin nəticəsi olaraq,1970-75- ci illər ərzində istehsalın artım sürətində ciddi dəyişikliklər baş verdi.

Ümummilli lider H.Əliyev kənd təsərrüfatının inkişafı ilə bağlı ittifaqa bir çox təkliflər irəli sürmüşdür. 1970-ci ildə "Kənd təsərrüfatını təkmilləşdirmək islahatları haqqında", 1975-ci ilin ildə "Kənd təsərrüfatı istehsalını daha çox sürətləndirmək tədbirləri haqqında" və eləcə də "İstehsalda üzümçülüyün inkişaf etdirilməsi ilə bağlı" qərarlar qəbul olundu.

Bir daha qeyd etmək lazımdır ki, Azərbaycanın iqtisadiyyatının bütövlükdə inkişafını təmin edən, Azərbaycanı qısa bir müddət ərzində keçmiş SSRİ-nin tabeliyindəki digər ölkələrdən daha üst mövqelərə gəlib çıxmasında Heydər Əliyevin əvəzsiz rolu olmuşdur. Onun cəhdləri nəticəsində Azərbaycanda beynəlxalq təşkilatlarla əlaqələr bərqərar olundu.

1992-1995-ci illər əzrində ümumi məhsul istehsalının həcmi aşağı düşürdüsə, 1996- ci ildən bu göstərici artmağa başlamışdır. İslahatların müsbət nəticəsi olaraq, 1999-2001-ci illər ərzində isə bu göstərici 7%, 12%, 11% yüksəlmişdir.

Müasir dövrdə Prezidentimiz İ.Əliyevin göstərişi ilə aqrar sahənin inkişafına dair tədbirlər həyata keçirilmişdir. Buna misal olaraq, 2011-ci ildə qəbul edilmiş "Üzümçülüyün inkişafına dair Dövlət Proqramı" adlı sərəncamı və digər hüquqi – normativ sənədləri göstərmək olar.

Ölkəmizin qeyri-neft sferasının inkişafında əsas prioritet sahələr İKT, turizm, nəqliyyat, energetika və digərləri hesab olunur. Beynəlxalq maliyyə qurumlarının məlumatlarına əsasən demək olar ki, kənd təsərrüfatı və turizm sənayesi də qeyri-neft sektorunda əhəmiyyətli rola malikdirlər. Belə ki, ölkənin işləyən əhalisinin 44% - i məhz bu sahələrdə fəaliyyət göstərirlər. Buna görə də, ölkədə kənd təsərrüfatının inkişafı üçün mütərəqqi dövlət proqramları həyata keçirilir, islahatlar aparılır, yeni texnologiyalar da cəlb olunur.

Xidmət sferasında xarici ticarət dövriyyəsi nəhəng ölkələr üzrə milyardlarla dollar təşkil edir. Belə ki, ABŞ-ın xidmət ixracı həcmi Azərbaycandan təxminən 150 dəfə, Böyük Britaniya isə 66 dəfə çoxdur. Buna baxmayaraq, Azərbaycan xidmətlərin göstərilməsi baxımından dünyada 76-cı yeri tutub, lakin bu göstəricidə müsbət artım müşahidə olunur.

Qeyd edək ki, turizm xidmətlərinin idxalı və ixracında Azərbaycanın payı dünya ortalamasından yüksəkdir (beynəlxalq xidmət ixracatında turizm xidmətlərinin payı 25%, xidmətlərin idxalında isə 23%). Məsələn, ABŞ-da turist xidmətləri ixracı bütün ixracatın təxminən 25% -ini, idxal isə 20%-ini, Almaniyada isə uyğun olaraq 14% və 28% təşkil edir. Yalnız Çində idxal edilən xidmətlərin payı Azərbaycanın payını aşır: bütün idxalların təxminən 26% -i turizmi əhatə edir.

Azərbaycanda turizmin formalaşmasında baş verən tendensiyalardan biri turizm xidmətlərinin inkişafı üçün şəraitin yaradılmasıdır: yəni, qida, yaşayış, nəqliyyat, ekskursiya proqramlarının təşkil olunması. Beləliklə, hal-hazırda müvafiq sənayenin inkişafı üçün imkanlar mövcuddur. Bu baxımdan, son illərdə Azərbaycanın qeyri-neft sektoruna investisiyaların kəskin artımı müşahidə olunmuşdur. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatına qoyulan investisiyalar 100 milyard dollar təşkil edibsə, onlardan 60 faizi qeyri-neft sektoruna aid olub.
Şəkil 3-dən göründüyü kimi, 2017-ci ilin ilk 6 ayı ərzində Azərbaycan üzrə qeyri-neft sektorunun ixracı 738 milyon dollar təşkil etmişdir. Və bu, 2016- cı illə müqayisədə 27% artım deməkdir.

Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyini artıran amilləri yeni dövr infrastrukturlarının yaradılması, həm də vergi sistemi, bu mexanizmlərin dövlət tənzimlənməsi, təkmilləşdirilməsinin həyata keçirilməsi ilə əlaqəlidir

Şəkil 1.5-dən göründüyü kimi, 2017-ci ilin ilk 6 ayı ərzində Azərbaycan üzrə qeyri-neft sektorunun ixracı 738 milyon dollar təşkil etmişdir. Və bu, 2016- cı illə müqayisədə 27% artım deməkdir.

**Şəkil 1.5 Azərbaycan: qeyri-neft ixracının əsas istiqamətləri ( 2017-ci ilin ilk 6 ayı üzrə verilənlər əsasında, mln. dollar)**






**Mənbə:** (https://cdn1.img.sputnik.az 2017 ci il)

Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyini artıran amilləri yeni dövr infrastrukturlarının yaradılması, həm də vergi sistemi, bu mexanizmlərin dövlət tənzimlənməsi, təkmilləşdirilməsinin həyata keçirilməsi ilə əlaqəlidir.

Azərbaycanda iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin inkişaf etdirilməsinin əsas istiqamətləri :

- Prioritet qrupların inkişafı;
- Yüksək keyfiyyətli və əlverişli sənaye infrastrukturunun yaradılması;
- Enerji və istilik enerjisi sektorunun inkişafı;
- Tikinti və daşınmaz əmlak sektorunun inkişafı;
- Nəqliyyat-logistika sektorunun inkişafı;
- Kiçik və orta sahibkarlığın inkişafının stimullaşdırılması;
- Əlaqələrin inkişaf etdirilməsi.

Bütövlükdə, öz müasir potensialı ilə müvəffəqiyyətli, dünya standartlarına cavab verən infrastrukturun formalaşması ölkənin XXI əsr texnologiyalarının tətbiqinə əsaslanaraq inkişaf etməsini sürətləndirəcək və iqtisadiyyatın əsas sahələrinin beynəlxalq rəqabətqabiliyyətliliyinin artmasına kömək edəcəkdir.

Yekunda demək olar ki, Azərbaycan Respublikası iqtisadiyyatının rəqabətqabiliyyətliliyini yüksəltmək üçün ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin müasir amillərinin formalaşmasının gücləndirilməsi zəruridir. Bu əhalinin rifah səviyyəsinin yaxşılaşdırılmasının, respublikanın sosial-

iqtisadi sabitliyinin və milli təhlükəsizliyinin təmin edilməsi üçün önəmli amilə çevrilməlidir.

## Fəsil 2. xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sahəsində Azərbaycanin gömrük siyasətinin əsas istiqamətləri.

### 2.1 Gömrük siyasəti - xarici iqtisadi fəaliyyətin əsas amili kimi.

Gömrük fəaliyyəti dövlətin meydana gəlməsi ilə birlikdə ortaya çıxmış və dövlət fəaliyyətində mühüm sahələrdən birinə çevrilmişdir. Gömrük fəaliyyəti dövlətin iqtisadi təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulmuşdur. Uzun tarixə malik olan gömrük fəaliyyəti ölkə iqtisadiyyatının və ticarətinin inkişafı ilə birbaşa bağlıdır.

Azərbaycanda müstəqil gömrük xidmətinin yarandığı gündən təxminən iyirmi il bizi ayırır. Əslində, Azərbaycanın gömrük xidməti daha qədimdir və uzun tarixi inkişaf yolu keçmişdir. Qədim Böyük İpək Yolu dövründə ölkəmizdə gömrük sisteminin mövcud olması öz əsaslandırılmış elmi sübutunu tapmışdır.

Tarixi məlumatlara görə, Bakı gömrüyü 1807-ci il yanvarın 25-də Rusiya İmperiyasının qərarı ilə, 1809-cu ildə Həştərxan Gömrük İdarəsinin bir hissəsi kimi yaradılmışdır. Daha sonra, 1831-ci ildən etibarən Zaqafqaziya Gömrük İttifaqı Nizamnaməsinə müvafiq olaraq Zaqafqaziya gömrük məntəqəsinə birləşdirilib və 1832-ci ildən "Bakı əsas gömrükxanası" adlandırılıb.

1989-cu ildən etibarən Bakı gömrüyü əsasında Dövlət Gömrük nəzarəti Baş İdarəsinin əmri ilə Azərbaycan Respublikasının gömrük idarələri yaradılmış və ölkədə digər gömrük idarələri idarə edilmişdir.

Sovet İttifaqının dağılmasından sonra gömrük sistemi müstəqil Azərbaycanın qurduğu yeni və vacib strukturlardan birinə çevrilmişdir. Azərbaycan Respublikası Prezidentinin 1992-ci ilin yanvarında qərarı ilə müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradılmışdır. Bakı gömrüyünün mövcudluğu zamanı gömrük fəaliyyətini əks etdirən sənədlər iki dövlət arxivində saxlanılır. Müstəqillik əldə etdikdən sonra isə Azərbaycan müstəqil gömrük siyasətini həyata keçirməyə başladı. Ancaq ilk illərdə bəzi çətinliklər mövcud idi. Bu çətinliklər əsasən obyektiv amillərlə əlaqələndirilir.

Birincisi, ölkənin bütün sərhədlərini əhatə edə biləcək vahid gömrük şəbəkəsi yox idi. İkincisi, SSRİ dövründə sovet gömrük siyasəti tətbiq olunduğundan, milli gömrük siyasəti hələ də müəyyənləşdirilməmişdi. Əvvəllər gömrük siyasətinin həyata keçirilməsi üçün milli gömrük qanunvericiliyi belə yox idi və gömrük fəaliyyəti köhnə SSRİ qanunvericiliyi ilə tənzimlənirdi. Üçüncüsü, milli gömrük

orqanlarının sayı çox məhdud idi və qısa müddətdə yeni kadr hazırlamaq üçün qanunvericilik bazası kifayət etmirdi. Dördüncüsü, Azərbaycan Respublikasının bəzi sərhədləri Ermənistanın işğalı altında idi. Beşinci isə kifayət qədər dərslik və dərs vəsaitləri mövcud deyildi. (A.Şəkərliyev, Bakı 2014 səh 170).

Bununla yanaşı, həmin dövrün mürəkkəb sosial-siyasi vəziyyəti gömrük orqanlarının normal formalaşmasına və yeni yaradılan dövlətin digər strukturlarına mane olurdu. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlət başçılığından sonra bütün sahələrində, o cümlədən gömrük sistemində əsaslı islahatlara başlanılmış və Dövlət Gömrük Komitəsinin fəaliyyətində radikal dəyişikliklər baş vermişdir.

Heydər Əliyev hesab edirdi ki, dövlətin iqtisadi təhlükəsizliyinin qorunması və daha da möhkəmləndirilməsinin əsas istiqamətlərindən biri müasir gömrük xidmətinin yaradılmasıdır. Heydər Əliyevin uzaqgörən siyasəti, bu strukturun modernləşdirilməsinə yönəldilmiş gömrük sisteminin formalaşması və iqtisadi siyasətə dair qiymətli təlimatları Azərbaycanda beynəlxalq standartlara cavab verən gömrük xidmətinin yaradılmasına şərait yaratdı. Bu gün mükəmməl hüquqi bazaya və inkişaf etmiş infrastruktura malik olan Azərbaycan gömrük xidməti maliyyə siyasətini həyata keçirir, ölkənin iqtisadi maraqlarını və təhlükəsizliyini quruda, dənizdə və havada qoruyaraq, uğurla qaçaqmalçılıq kimi müxtəlif növ cinayətlərlə mübarizə aparır.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan - Azərbaycan Prezidenti İlham Əliyevin - rəhbərliyi altında, müasir dövrdə ölkəmizin inkişaf prosesləri ölkəmizin uzunmüddətli və davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi, dövlət idarəetməsinin müasir prinsiplərinə keçid məqsədi ilə informasiya və kommunikasiya texnologiyalarının intensiv istifadəsi, eləcə də "Biz “qara” qızılları intellektual qızıllara çeviririk" tezisinə əsaslanan layihələrin həyata keçirilməsinə yönəldilmiş dövlət siyasətinin prioritet istiqamətlərinə çevrilmişdir. Bu istiqamətdə çox işlər görülmüşdür və hal-hazırda da bu işlər uğurla davam etdirilir. (A.Şəkərliyev, Bakı 2014 səh 286).

Bütün islahatlar nəticəsində son illərdə Azərbaycan gömrüyünün davamlı, dinamik inkişafı və yeni, müasir layihələrin reallığını təcəssüm etdirən gömrük sistemi özü, beynəlxalq standartlara tam uyğun gələn nümunəvi bir təşkilat kimi inamla inkişaf etdirilir. Ötən dövrlərə görə ilbəil yeni uğurlara imza atan Dövlət Gömrük Komitəsi və onun orqanları idxal və ixrac əməliyyatlarına gömrük nəzarətinin yaxşılaşdırılması, gömrük orqanlarında xarici iqtisadi fəaliyyətin və maliyyə - vergi mexanizminin gömrük tariflərinin tənzimlənməsi, Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsinin qəbul edilməsi, həmçinin gömrük - vergi qanunvericiliyinin tənzimləyici çərçivəsinin gücləndirilməsi, qaçaqmalçılıq və gömrük pozuntularına qarşı mübarizənin gücləndirilməsi, gömrük qurumlarının maddi-texniki bazasının inkişafı, kadrların keyfiyyətinin yaxşılaşdırılması və işçilərin peşə səviyyəsinin yüksəldilməsi üzrə çox işlər görmüşdür. Eyni zamanda, iş təcrübəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirərək, Azərbaycan Gömrük Xidməti bu sahədə əsaslı islahatlar həyata keçirmişdir.

Gömrük işi, gömrük sərhədindən malların və nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi haqqında Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, gömrük və tariflərin tənzimlənməsi, qadağa və məhdudiyyətlər üzrə tədbirlərin yerinə yetirilməsinin təmin edilməsi üsulları və vasitələridir.

Müasir şəraitdə gömrük işi, icra hakimiyyəti sisteminin bir hissəsi olan mürəkkəb vahid qurum adı altında, biliyin dinamik inkişaf etdirilmiş sahəsi kimi çıxış edir. Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi gömrük işi əsaslarının tətbiqi olmadan mümkün deyildir, çünki malların sərhəddən keçirilməsi hər zaman gömrük sistemi ilə qarşılıqlı əlaqədə olmaq deməkdir.

Azərbaycanda gömrük xidməti məhsulların Respublikanın gömrük sərhədindən keçirilməsi, gömrük rüsumlarının toplanması, gömrük nəzarəti və gömrük siyasətinin reallaşdırılmasının digər vasitələrindən ibarətdir. Azərbaycan Respublikasında gömrük işi, beynəlxalq normalar və praktikalara uyğunlaşdırma və birləşmə yönündə inkişaf etməyə davam edir.

Ölkənin gömrük işi ilə bağlı qanunvericiliyi Azərbaycan Respublikasının "Gömrük tarifləri" haqqında qanun və digər qanunvericilik aktlarından, sənədlərindən ibarətdir.

Azərbaycan Respublikasında gömrük orqanları hüquq mühafizə orqanları olan və vahid formalı sistem şəklində olan gömrük orqanları tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının gömrük işini həyata keçirən icra hakimiyyəti orqanı:

- Gömrük işinə aid olan məqsədlər üzrə malların ekspertizası və yoxlanılması üçün gömrük laboratoriyalarını yaradır;
- Gömrük işi sferasında elmi-tədqiqat araşdırmalarının həyata keçirilməsi, kadrların hazırlanması və onların ixtisaslarının artırılması yönündə, elmi-tədqiqat institutları, təhsil müəssisələri, peşə təhsili, kompüter mərkəzləri, çap və gömrük problemlərinin həllinə öz təsirini göstərə biləcək təşkilatlar yaradır;
- Gömrük orqanlarının, gömrük laboratoriyalarının, tədqiqat müəssisələrinin və təhsil müəssisələrinin və qurumlarının əmlakı dövlət mülkiyyəti hesab olunur.

Bu gün gömrük xidməti beynəlxalq iqtisadi fəaliyyətin tənzimlənməsi və gömrük siyasətinin həyata keçirilməsində xüsusi yer tutur. Gömrük xidməti respublikanın icra strukturunun bir hissəsidir və Azərbaycan Respublikasının Prezidenti və hökuməti tərəfindən ona verilmiş vəzifələrin icrası üçün hüquqi baza və gömrük infrastrukturuna malikdir. Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında gömrük xidmətinin rolu ildən-ilə artmaqdadır, bu da dövlətin iqtisadi təhlükəsizliyini və beynəlxalq iqtisadi əlaqələrin inkişaf etdirilməsində mühüm amil hesab olunur.

Şəkil 2.1 – dən göründüyü kimi gömrük elementləri 4 növə bölünür. Bunlardan biri görmük əməliyyatlarıdır. Gömrük əməliyyatları - gömrük rəsmiləşdirilməsi zamanı şəxslər və gömrük orqanları tərəfindən həyata keçirilən mal və nəqliyyat vasitələri ilə bağlı ayrı-ayrı tədbirləri nəzərdə tutur.

**Şəkil 2.1 Gömrük işinin elementləri**




**Mənbə:**(knowledge.allbest.ru 2018 ci il).

Gömrük prosedurları gömrük əməliyyatlarının həyata keçirilməsi prosedurunu təmin edən və gömrük məqsədləri üçün malların və nəqliyyat vasitələrinin vəziyyətini müəyyən edən bir sıra müddəalardır. Bunlara daxildir: daxili gömrük tranziti, müvəqqəti saxlama, gömrük rejimlərinin seçilməsi və istifadəsi proseduru və s.

Gömrük tarifləri dünya bazarı ilə qarşılıqlı münasibətə əsaslanaraq, Azərbaycan mallarının daxili bazarının ticarət siyasətinin və dövlət tənzimlənməsinin bir vasitəsidir. Gömrük elementi kimi, o, gömrük ödənişlərinin məbləğini müəyyənləşdirməyə kömək edir. Gömrük tarifinin əsasları xarici iqtisadi fəaliyyətin gömrük tarifi və xarici ticarətin digər növlərinin qeyri-tarif tənzimlənməsi tədbirlərinin həyata keçirilməsində istifadə olunan xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasıdır. Onun mahiyyəti, hər bir məhsulun köçürülməsi ilə əlaqədar, gömrük rüsumunun dərəcəsinə təsir edən təsnifat kodunun müəyyənləşdirilməsidir. ( azkurs.org 2018 ci il).

Gömrük statistikası gömrük işinin müstəqil bir elementdir. Bu, gömrük ödənişlərinin federal büdcəyə alınması, valyuta nəzarəti, vəziyyətin təhlili, Azərbaycan Respublikasının xarici ticarətinin inkişafı dinamikası və tendensiyaları, onun ödəniş balansı və bütövlükdə iqtisadiyyata nəzarət etmək üçün istifadə olunur.

Gömrük fəaliyyəti qanunlar əsasında həyata keçirilir. Dövlət Gömrük Komitəsi daim kadrların hazırlanmasını və beynəlxalq əməkdaşlığın inkişafını xüsusi diqqət mərkəzində saxlayır. Tədris materialları və gömrük məsələləri üzrə təlimatların keyfiyyətinin yaxşılaşdırılması təhsilin səviyyəsinə, komitə işçilərinin peşə biliklərini artırmağa və gələcəkdə daha yüksək ixtisaslı kadrların yetişdirilməsinə xidmət edir.

Beynəlxalq Gömrük Təşkilatının dəstəyi ilə həyata keçirilən regional təlim kurslarında gömrük əməkdaşlarının iştirakının təmin edilməsi və digər beynəlxalq təşkilatların təşkil etdiyi seminarlar və kurslarda gömrük ekspertləri tərəfindən müasir kurik və praktik biliklərin əldə edilməsi gömrük fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəldilmişdir. “Azərbaycan Respublikasının gömrük orqanlarında xidmət göstərilməsi haqqında Nizamnamə” qəbul edilmiş, Azərbaycan Respublikasının gömrük işçiləri üçün davranış qaydalarını və gömrük orqanlarında etik siyasəti müəyyənləşdirən "Daxili İntizam Qaydaları" və "Şərəf Məcəlləsi" təsdiqlənmişdir. Bu işi yaxşılaşdırmaq üçün gömrük işçilərinin etik davranışı ilə bağlı Avropa Birliyinin təcrübəsinin öyrənilməsini təşkil etmək lazımdır. Beynəlxalq əməkdaşlığın inkişafı ölkədə gömrük fəaliyyətinin təkmilləşdirilməsi və müasir gömrük modelinin strukturunun təmin edilməsi üçün böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə iş aparmaq ölkənin gömrük sistemində tətbiq olunan standartların bu sahədə olan beynəlxalq standartlara uyğun olmasını və inkişaf etmiş xarici ölkələrin təcrübəsini AR-də daha tez tətbiq olunmasına şərait yaratmalıdır.

Gömrük sahəsində beynəlxalq əməkdaşlığa böyük diqqət yetirilir. Beləliklə, 3 may 2000-ci ildə Milli Məclis malların təsviri və kodlaşdırılmasına dair harmonik sistem haqqında Beynəlxalq Konvensiyanı ratifikasiya etmişdir. 2003-cü ildə isə Azərbaycan məhsullarının beynəlxalq daşımaları haqqında Gömrük Konvensiyasını və Gömrük prosedurlarının sadələşdirilməsi və uyğunlaşdırılması üzrə beynəlxalq konvensiyanı (Kyoto konvensiyasını) təsdiq etmişdir.

Bütün dünya üzrə qloballaşma prosesi, öz növbəsində, gömrük orqanlarının modernləşdirilməsi və təkmilləşdirilməsi məsələlərinin reallaşdırılmasına səbəb

olan ideyaların, müasir texnologiyaların, malların və xidmətlərin qarşılıqlı paylanmasına şərait yaradır. Eyni zamanda, sözügedən məsələ gündəlik praktiki fəaliyyətdə müasir informasiya texnologiyalarının tətbiq olunmasını təmin edir.

Azərbaycan strateji tərəfdaş olduğundan, beynəlxalq təşkilatlar gömrük sahəsində informasiya texnologiyalarının tətbiqi sahəsi üzrə böyük köməklik göstərmişdir və bu yardım öz faydasını vermişdir. (Heydərov K.F ,,1998.səh 256 ).

Məlumdur ki, gömrük rüsumlarının alınması prosesinin beynəlxalq standartlara uyğunluğunun təkmilləşdirilməsi, modernləşdirilməsi və təmin edilməsi dövlət büdcəsinin artırılması üçün böyük əhəmiyyət kəsb edir. AR-nın "Gömrük tarifi haqqında" qanununa əsasən gömrük rüsumlarının səviyyəsinin müəyyənləşdirilməsi qaydaları aşağıdakılardır:

- Azərbaycan Respublikasında bir çox mallara ixrac gömrük rüsumları şamil olunur.
- İdxal gömrük rüsumlarının dərəcələrini uyğun icra hakimiyyəti qurumları müəyyən edir.
- İxrac gömrük rüsumlarının səviyyələrini və onların tətbiq edildiyi məhsulların siyahısını uyğun icra hakimiyyəti qurumu müəyyənləşdirir.
- Bu Qaydalarda nəzərdə tutulmuş hallarda xüsusi, antidempinq rüsumları tətbiq oluna bilər.
- Gömrük rüsumlarına görə gömrük borcunun miqdarı hesablanan zaman xarici iqtisadi fəaliyyətin mal nomenklaturasında göstərilən ölçü vahidi və gömrük dəyəri baza dəyər olaraq götürülür.
- Bu Qanunda göstərilən hallar istisna edilərək, gömrük rüsumunun səviyyəsi gömrük zonasından malları keçirən hüquqi və fiziki şəxslərdən, müqavilə növündən və digər amillərdən asılı olaraq dəyişdirilə bilməz.

Gömrük ödənişləri (ƏDV və aksiz vergiləri) və gömrük rüsumları beynəlxalq ticarət əməliyyatlarının tənzimlənməsində çox vacibdir. Bu gün onların rolu daha da artır. Belə ki, gömrük vergiləri sərhədyanı və daxili rüsumlara ayrılır. Sərhəd rüsumları yerli məhsullar üçün xarakterikdir. Bu vergilər idxal üçün mallardan

tutulan vergiləri nəzərə alaraq, qiymətlərdən hesablanır. Daxili vergilərə aksiz vergisi, gömrük rüsumları, qeydiyyatdan vergi və s. aid etmək olar.

Azərbaycanda həmçinin idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair tədbirlər planı hazırlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il Sərəncamı ilə təsdiq edilmiş tədbirlərə aid etmək olar:

- İdxal edilən malların elektron üsulda qabaqcadan elan edilməsi sisteminin tətbiqi; Gömrük prosedurlarının asanlaşdırılması və gömrük rəsmiləşdirilməsi prosedurunda “Bir pəncərə” sisteminə birləşən dövlət qurumları arasında sənəd mübadiləsinin inkişaf etdirilməsi;
- Gömrük sərhədindən keçirilən məhsulların və nəqliyyat vasitələrinin bərabərləşdirilməsi vasitələrinə birgə nəzarətin təşkili;
- Gömrük zonasından keçirilən mallara görə gömrük bəyannaməsinin ancaq elektron formada verilməsi.

Azərbaycan Respublikasının Gömrük komitəsi dövlətin siyasətinin ayrılmaz tərkib hissəsidir, onun əsas vəzifələri aşağıdakılardır:

- Ölkənin gömrük ərazisində gömrük nəzarəti və ticarətin tənzimlənməsi üçün vasitələrin səmərəli istifadəsini təmin etmək;
- Azərbaycan Respublikasının daxili bazarının qorunması;
- Milli iqtisadiyyatın inkişafını stimullaşdırmaq;
- Azərbaycan Respublikasının dövlət iqtisadi siyasətindən irəli gələn vəzifələri yerinə yetirməkdə yardım etmək;
- Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq təyin edilmiş digər məqsədlər.

Gömrük siyasəti dövlət orqanlarının gömrük rüsumlarının tətbiqi, habelə müəyyən iqtisadi, sosial, maliyyə və ticarət-siyasi məqsədlərə nail olmaq üçün gömrük prosedurları və digər vasitələrin tətbiq edilməsi ilə bağlı fəaliyyətini əhatə edir. Gömrük siyasətinin həyata keçirilməsinin əsas üsulları aşağıdakılardır:

- Gömrük tənzimlənməsinin iqtisadi vasitələr sistemi;

- Gömrük ittifaqlarında iştirak, azad ticarət zonaları və beynəlxalq konvensiyalara (sazişlərə) qoşulma;
- Sərhəddən malların keçirilməsi rejimi;
- Dövlət gömrük nəzarəti orqanlarının şəbəkəsi,
- Gömrük fəaliyyətinin zəruri qanunvericilik normaları.

Xarici ticarətin inkişaf etdirilməsində dövlətin ən güclü təsir vasitələrindən biri gömrük siyasətidir. İxrac, idxal əməliyyatlarında müəyyən məhsullar üçün məhdudiyyətlər qoymaq, yaxud stimullaşdırmaq, ölkəyə mənfəət gətirməklə büdcəni doldurmaq mümkündür. Bu tədbirlərin həyata keçirilməsi ilə ölkədə istehsalı çoxaltmaq, daxili bazarı zənginləşdirmək, məhsul ixracı üçün normal mühit yaratmaq kimi problemləri həll etmək olar. Dünya praktikasında olduğu kimi, Azərbaycanın qüvvədə olan qanunlarının tətbiq olunması vasitəsilə, gömrük siyasətindən istifadə olunaraq (tariflər və qeyri tariflər) xarici ticarət nizamlanır.

Təcrübəvi olaraq yeni gömrük siyasətinin həyata keçirilməsi bir sıra üstünlüklərə malik olmalıdır. Yeni gömrük siyasətində mallara bəyannamə verilməsinə qədər həmin mallara dair məlumatlar faktiki olaraq gömrük sənədləşməsinə daxil edilir. Bu siyasətin dövlətin iqtisadi maraqlarının qorunmasına meyllənmiş əsas istiqamətlərindən biri də xarici iqtisadi fəaliyyət iştirakçılarının valyuta əməliyyatlarına nəzarət sisteminin yaradılmasıdır. Bütün bu problemlərin idarəetmə səviyyəsində yerinə yetirilməsi kompleks xarakter daşıyır.

Müasir şəraitdə Azərbaycan Respublikasının beynəlxalq əmək bölgüsündə fəal iştirak etməsi şəraitində xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin və gömrük siyasətinin qurulmasının elmi əsasları formalaşdırılmalıdır. Bu vaxt yerli istehsalçıların səmərəli müdafiəsinin üsul və qaydaları nəzərdə tutulmalı və əsaslandırılmalıdır. Belə olduğu zaman ölkədaxili istehsalın inkişafı iqtisadiyyatın yüksəlişində və daxili bazarın genişlənməsində və onun müdafiə olunmasında əsas faktor olacaqdır

## 2.2 İxracın stimullaşdırılması üzrə dünya təcrübəsi və Azərbaycan mallarının xarici bazarlara çıxması üçün əlverişli şəraitin yaradılması.

Dünya təcrübəsinin təhlili göstərir ki, demək olar ki, bütün ölkələr makro və mezo

səviyyələrində xarici iqtisadi fəaliyyətə nəzarət edir və stimullaşdırırlar. Xarici ölkələrdə ixraca dəstək, müəyyən profilli nazirliklər və idarələr, ixtisaslaşdırılmış agentlər və ekspert mərkəzləri, maliyyə strukturları, diplomatik missiyalar və s. ilə əlaqəli, bir-birilə qarşılıqlı əlaqədə olan və bağlı olan hökumət və qeyri-hökumət qurumlarının bütöv bir sistemi kimi çıxış edir.

İxracın stimullaşdırılmasına dövlət dəstəyi Amerika, Avropa və Asiyanın bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində olduqca inkişaf etmiş şəkildə həyata keçirilir. Digər ölkələrdən fərqli olaraq, ABŞ-da dövlət dəstəyi ən mükəmməl səviyyəyə çatmışdır. Xaricdə Amerikan biznesinin dəstəklənməsində əsas istiqamət amerikan şirkətlərə səmərəli kommersiya layihələrini həyata keçirmək üçün əlverişli institusional mühit yaratmaqdır. Dövlət Departamenti xaricdəki bütün nazirlik və idarələrin, hökumət təşkilatları və onların nümayəndələrinin xarici iqtisadi fəaliyyətlərinin əlaqələndirilməsini həyata keçirir. Dövlət Departamentinin himayəsi altında, xarici iqtisadi fəaliyyətlə bağlı müxtəlif məsələlər üzrə, ABŞ-ın biznes maraqlarına birbaşa təsir göstərən əsas beynəlxalq və ya ikitərəfli hadisələrlə bağlı mövqeyi dəyərləndirmək üçün, biznes strukturlarının nümayəndələrinin iştirakı ilə koordinasiya və məsləhətləşmə komitələrinin iclasları keçirilir. ( cyberleninka.ru -2018 ci il).

Böyük Britaniyada xarici iqtisadi siyasət ölkənin ümumi iqtisadi siyasətinin bir hissəsidir. Ölkədə xarici iqtisadi fəaliyyətlə bu və ya başqa formada məşğul olmayan heç bir nazirlik yoxdur. Öz tərkibində ticarət məsləhətçiləri kimi fəaliyyət göstərən müxtəlif nazirlik və idarələrin nümayəndələri ilə çıxış edən Britaniyanın diplomatik missiyaları xarici iqtisadi əməkdaşlığın inkişafında mühüm rol oynayır. Beynəlxalq Ticarət Şurası xarici ticarətdə dövlət qurumlarının və biznesin güclərini əlaqələndirməyə kömək edir, ixrac bazarlarına sahib olan şirkətlərə pulsuz olaraq yaxud da nominal haqq üçün yardım edir. Britaniya Milli İxrac Şurası, "ticarət pəncərələrini" açma praktikası adlanan, orijinal ixraca təşviq formasını tətbiq edir. Eyni zamanda, bu xarici bazara ilk dəfə sahib çıxmağa çalışan ixrac məhsulları üzrə ingilis firmaları üçün sərgi ekspozisiyalarının təşkili üçün təşkilati və maliyyə yardımı təmin edilir.

Cənubi Koreya hökuməti, beynəlxalq ticarət və texnologiya idxalına institusional dəstəyi təmin etmək məqsədilə, 1962-ci ildə Ticarətin təşviqi korporasiyası yaratmışdır. Malların və xidmətlərin ixracını stimullaşdırmaq üçün, ən yaxşı ixracatçıların medallarla mükafatlandırıldığı və məşhur olduğu "İxrac günü" təsis edildi.

Yaponiyada xarici iqtisadi əlaqələrə xidmət göstərən və onu büdcə vəsaitlərindən maliyyələşdirən sistemin təşkilatçısı kimi dövlət çıxış edir. Dəstək sistemi marketinq məlumatlarının toplanması və təhlil edilməsi, informasiya və məsləhət xidmətlərinin göstərilməsi, reklam və sərgi işlərinin təşkili, yeni iştirakçıları xarici iqtisadi fəaliyyətə cəlb etmək və s. bu kimi fəaliyyət sahələrini əhatə edən geniş yayılmış xarakterə malikdir.

Xarici iqtisadi fəaliyyətə dəstək sisteminin informasiya təminatı. İnformasiyaya yiyələnmə və informasiyanın keyfiyyətində üstünlük əlavə təhlükəsizlik aləti hesab olunur və daha çox əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir. Nəticədə, bu, şirkətin rəqabət qabiliyyətində həlledici amil ola bilər.

Xarici iqtisadi fəaliyyətə informasiya dəstəyi müxtəlif elanlar, kataloqlar, informasiya bülletenləri buraxılaraq həyata keçirilir. Belə ki, ABŞ-da ixrac təşviqi proqramı çərçivəsində ixrac proqramları üçün biznes rəhbərlərinə ixracata federal yardım üzrə təlimatlar verilir. Bu kataloqlar ixracatçılara dövlət dəstəyinin əsas istiqamətlərini, federal qurumların göstərdiyi yardım növlərini və onu əldə etmək mexanizmini təqdim edir.

Beləcə müəyyən regionlarda malların irəlilədilməsindən məsul olan ABŞ ticarət missiyaları, həmin ərazidə mütləq öz ofislərini açırlar. Hər hansı bir ABŞ şirkəti hər hansı bir ölkənin bazarına girmək istəyirsə, aşağıdakılar daxil olmaqla, pulsuz xidmət paketi əldə edir:

- Kontragent – ölkənin bazarının təhlil edilməsi;
- İstehsal sektorunun maraqlarının təhlili;
- Beynəlxalq bazarların təhlili.

Heç də böyük olmayan ödənişlərə yaxın vaxtda, müəssisə və ya sahibkar, kontragent mərkəzi – ölkəyə ixracın inkişafı üzrə sifariş verə bilər:

- Nəzərdə tutulan ixrac və ya idxal obyektinə dair geniş marketinq tədqiqatları;
- Qarşılıqlı tərəfdaş şirkətin xarici ticarət profili, bütün lazımi detalları, kredit tarixçəsi, güclü və zəif tərəflərini ifadə edən təhlillər;
- Perspektivli tərəfdaşlarla görüşlər təşkil etmək üçün xarici tərəfdaş və xidmətlərin tapılması üzrə xidmətlər.

1962-ci ildən Yaponiyada Xarici ticarət və Sənaye nazirliyi tərəfindən təsis edilmiş Sənaye mühafizəsi institutunun himayəsi altında fəaliyyət göstərən xarici iqtisadi məlumatların toplanması üçün formalaşmış bir quruluş mövcuddur. Belə ki, xarici iqtisadi fəaliyyətin informasiya dəstəyi, xarici ticarət məlumatlarının toplanması və analizi ilə bağlı işlərdə Xarici İşlər Nazirliyi, Xarici Ticarət və Sənaye Nazirliyi, Elm və Texnologiya İdarəsi, İqtisadi Planlaşdırma İdarəsi və digər təşkilatlar iştirak edir.

Almaniyada xarici iqtisadi məlumat sistemi böyük banklar və sığorta şirkətlərini və nüfuzlu işgüzar qrupları təmsil edən güclü informasiya və analitik mərkəzin olması ilə xarakterizə olunur. Sistem, federal və regional strukturlar, 6 mindən çox ticarət və sənaye birlikləri və çox sayda özəl informasiya firması daxil olmaqla, xarici iqtisadi fəaliyyətdə iştirak edən çox sayda iştirakçının fəaliyyətinə cəlb olunması səbəbindən çoxşaxəli və çox səviyyəli struktura malikdir.

İxracatçılara böyük maraq xarici iqtisadi fəaliyyətin həyata keçirilməsində maneə və çətinliklərin təhlilini və onların aradan qaldırılması üçün şəraitin yaradılmasından ibarətdir. İnkişaf etmiş ölkələrdə bu cür fəaliyyətlər ictimai və özəl xüsusi araşdırma mərkəzləri tərəfindən həyata keçirilir. ABŞ-da belə maneələrə aid etmək olar: standartlarda fərqlənmələr, bir çox idxalatçı ölkədə intellektual mülkiyyət hüquqlarının qeyri-kafi səviyyədə qorunması, vəzifəli şəxslər tərəfindən rüşvətxorluq və korrupsiya halları və s.

Bir çox ölkələrdə məhsulları xarici bazarlarda tələbatın ödənilməsinə yönəldilmiş kommersiya müəssisələrinin yeni növlərinin yaradılması təcrübəsi mövcuddur. Bu sahədə, məsələn, Çili və Braziliyanın təcrübəsi diqqətə layiqdir.

Dövlətin hesabına yaradılan və fərdi şəxslərin mülkiyyətinə verilmiş xarici iqtisadi yönümlü müəssisələrdə xarici iqtisadi fəaliyyətini aktiv şəkildə təbliğ edir.

İxracat sənayesinin sürətli təşkilinə nümunə kimi Vyetnamı göstərmək olar. Vyetnam ixracatçıları, dünya konyukturunun hər hansı dəyişikliklərinə tez uyğunlaşırlar. Nəticədə, son illərdə Vyetnam ixracatı orta hesabla illik 20% səviyyəsində artmışdır.

Dövlət dəstəyi, ölkənin məhsullarını xarici bazarlara çıxarmaq üçün ixracatçıların çəkdiyi xərcləri bərpa etməklə təmin olunur. Bunlara misal olaraq: məhsulların qeydiyyat xərcləri, sertifikatlaşma xərcləri, xaricdə nümayəndəlik saxlama xərcləri, beynəlxalq sərgilərdə iştirak etmək üçün xərclər, xaricdə yerli məhsulların reklam dəyəri, mütəxəssislərin hazırlanması xərcləri və s.(əlavə 3)

Türkiyədə 2016 – cı il 15 iyul hadisələrindən sonra yaşanan qeyri-müəyyənlik şəraitində ixracata hər zaman olduğundan daha çox tələb yaranmışdır. Bununla bağlı olaraq, bir çox turk qurumları və banklar zərərə uğramış şirkətlərə yardım mexanizmi formalaşdırmışdır. Aşağıdakı şəkildə bir çox qurumların ixracatçılara verdiyi dəstək əks olunmuşdur (Cədvəl 2.1).

Türkiyədə yeni bazarlara açılmağa hazırlaşan ixracatçılara olan maliyyə dəstəyi mexanizmi bir çox banklar və idarələr tərəfindən gerçəkləşdirilir. Cədvəl 2.1 – dən göründüyü kimi TÜRK EXİMBANK, İŞ BANKI, KOSGEB, YAPIKREDİ BANKI, FİNANSBANK, ŞEKERBANK, İNGBANK və digər bu kimi idarə və təşkilatlar kredit problemi ilə boğuşan şirkətlərə müxtəlif dərəcəli, eyni zamanda müxtəlif müddətli kreditlər təqdim edir. Uzun müddət azalan ixrac tutumu səbəbilə xəyal qırıqlığına uğramış şirkətlər, bu kreditlər vasitəsilə yenidən hərəkətə keçmişdir. İxracatçılar üçün isə indi ən mühüm problem hansı bazarların riskli, hansı bazarların faydalı olacağı bilmək və əlbəttə ki, ixracatı maliyyələşdirəcək sərmayə dəstəyi təmin etməkdir.

Müasir dövrdə Azərbaycanda malların ixracının stimullaşdırılmasına əlverişli şəraitin yaradılması üzrə dünya praktikası əsasında tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin ‘Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı” 2016-cı il Fərmanının icrasının təsdiqlənməsi

məqsədilə həmin ilin 6 oktyabrında "İxrac təşviqi aid olunacaq qeyri-neft mallarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına görə siyahısı"nı təsdiq etmişdir. 2018-ci il 25 iyun tarixli qərarda isə 2016-cı il 6 oktyabr qərarında dəyişikliklər edilməsi üzrə təlimatlar qeyd olunmuşdur. (Heydərov K.F 1998.səh2 89 ).

Onu da qeyd etmək lazımdır ki, ixracın stimullaşdırılmasında xüsusi önəmli rola malik olan ixrac təşviqi mexanizmi artıq tətbiq olunmağa başlayıb. Bu zamana qədər mexanizm çərçivəsində şərab, konservlər, şirələr, fındıq və digər mallar üzrə Rusiya, Çin, Almaniya,ABŞ, Türkiyə, Belarus və s. ölkələrə ixrac edilməsi əvəzində 270 min manata qədər vəsait sahibkarlara geri ödənilmişdir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən, Azərbaycan 2017-ci ildə 187 ölkə ilə xarici ticarət fəaliyyətində iştirak edərək, 116 ölkəyə ixrac, 179 ölkədən isə idxalat gerçəkləşdirmişdir. Ticarət həcminin payı ; 27,29 %-i MDB ölkələri, 22,12%-i Avropa Birliyi ölkələri və 50,59%-i isə digər ölkələr təşkil edir.

2017-ci ildə Azərbaycanın idxalatı 8.782,0 mln. ABŞ dolları, ixracatı 13.811,6 mln. ABŞ dolları olmaqla ümumi 22.593,6 mln. ABŞ dolları dəyərində xarici ticarət həcmi həyata keçirilmişdir

**Cədvəl 2.2 Azərbaycanın 2017-ci il üzrə idxalat və ixracat həcmləri**

| Ölkələr | İxracat həcmi | Ölkələr | İdxalat həcmi |
|---|---|---|---|
| **İtaliya** | 31,9% | **Rusiya** | 17,7% |
| **Türkiyə** | 9.9% | **Türkiyə** | 14,5% |
| **İsrail** | 4,6% | **Çin** | 9,7% |
| **Rusiya** | 4,3% | **ABŞ** | 8,2% |
| **Çexiya** | 4,0% | **Ukrayna** | 5,2% |
| **Kanada** | 3,9% | **Almaniya** | 5,1% |
| **Gürcüstan** | 3,4% | **İtaliya** | 3,6% |
| **İndoneziya** | 3,4% | **İran** | 2,7% |
| **Almaniya** | 3,3% | **İngiltərə** | 2,7% |
| **Portuqaliya** | 3,2% | **Braziliya** | 2,0% |
| **Çin** | 3,2% | **Yaponiya** | 1,9% |
| **Hindistan** | 2,6% | **Norveç** | 1,8% |
| **Ukrayna** | 2,5% | **Fransa** | 1,8% |
| **Fransa** | 2,4% | **Digər ölkələr** | 23,1% |
| **Digər ölkələr** | 17,4% | | |

**Mənbə:** (www.stat.gov.az 2017 ci il)

2017-ci ilin sonundan etibarən Türkiyə-Azərbaycan Xarici Ticarət həcmi 2,6 mlrd. Dollar dəyərində olmuşdur. Bu dönəmdə Türkiyənin

Azərbaycandan idxalatı 20,6% artaraq, 1.366,3 mln. dollar, Türkiyənin Azərbaycana ixracatı isə 7,8 % artaraq 1.273,7 mln. dollar olmuşdur

2017-ci ildə Azərbaycanın ixracatında qeyri-neft məhsullarının həcmi 1.538,4 milyon dollar olmuş, bu da 2016 ili ilə müqayisədə 24,4% artım deməkdir.

"İxrac İcmalı"nın 2018-ci ilin noyabr ayı üzrə hesabatda belə göstərilir: 2018-ci ilin ilk 9 ayı üzrə qeyri-neft sektoru üzrə ixrac 1,351,000,000 $ olmuşdur. Bu göstəriciləri keçən ilin müvafiq dövrü ilə fərqləndirsək görərik ki, ixracın həcmi 11%, yəni 132,000,000 $ artmışdır. 2018-ci ilin ilk 10 ayı periodunda müxtəlif ölkələrə edilən ixracın miqdarı aşağıdakı kimidir: Türkiyə-293 mln. $, Rusiya- 467 mln. $, Gürcüstan-106 mln. $, Qazaxıstan 38 mln. $ və s. Ancaq bu göstəricilərdə keçən ilki göstəricilərlə müqayisədə dəyişmələr olmuşdur və bu dəyişikliklərin miqdarı belədir: Rusiya 10%, Türkiyə 21% artmış, Gürcüstan 1,4% azalmışdır.

2018-ci il üzrə ixrac edilən qeyri-neft sektoruna daxil olan əmtəələr siyahısında pomidor (149 mln. $) 1-ci, qızıl (99 mln. $) 2-ci olmuşdur.

Ümumi olaraq, 2018-ci il üzrə meyvə-tərəvəz ixracı 405 mln. $, alüminium ixracı 102 mln. $, elektrik enerjisi ixracı 60 mln. $ təşkil etmişdir. 2017-ci illə müqayisədə alüminium 5%, meyvə-tərəvəz ixracında isə 8% artım müşahidə olunmuşdur.

Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının həvəsləndirilməsi məqsədilə bir çox ölkələrdə ticarət evləri formalaşdırılır. Bu ökələrə - Belarus, Rusiya və Ukraynanı misal göstərmək olar.

Qeyd etmək lazımdır ki, İqtisadiyyat Nazirliyinin ixrac portalının (www.export.az 2018 ci il) yaradılması ixrac imkanlarının aşkara çıxarılması və yeni bazarlara qatılmaq üçün əlavə imkanların yaradılması, xarici ticarət partnyorları ilə münasibətlərin gücləndirilməsi, beynəlxalq standartlara cavab verən rəqabətədavamlı yerli istehsal mallarının dünya bazarlarına çıxarılması, ixrac potensialının gücləndirilməsi baxımdan ixrac üçün əlverişli şəraitin yaradılmasında mühüm rol oynayır.

Bütün bunlar göstərir ki, ölkə başçısının qəbul etdiyi müvafiq proqramlar və qərarlarla ixracın stimullaşdırılması üzrə perspektivlər gerçəkləşəcək, Azərbaycanın iqtisadi gücünün, beynəlxalq nüfuzunun yüksəlməsində pay sahibi olacaq.

## 2.3.Milli təhlükəsizlik maraqlarının qorunmasında gömrük xidmətlərinin təkmilləşmə istiqamətləri.

Milli təhlükəsizlik anlayışı elmi ədəbiyyatda birmənalı qarşılanmır. Siyasi və hüquqi elmdə bu anlayış təkcə müvafiq strukturların fəaliyyətinin effektivliyinin kəmiyyət qiymətləndirilməsi ilə deyil, həm də cəmiyyətin, fərdin yaşayışının keyfiyyət tərəfi ilə , ümumilikdə hüquq-mühafizə sisteminin şərtləşdirilmiş sabit işi ilə əlaqədar olaraq nəzərdə tutulur. Müəlliflər milli təhlükəsizliyi hökumətin toxunulmazlığı, hüquqi mədəniyyət səviyyəsi baxımından, hətta cəmiyyətdə mövcud olan və onun stabilliyinin təminatı olan dəyərlər sistemi nöqteyi nəzərdən təhlil edir.

Sosiologiya təhlükəsizliyi üç aspektdə nəzərdən keçirir:

- struktur aspektdə - həyati mənafelər və onların subyektləri (münasibət təmsilçiləri) sistemi kimi; müxtəlif amillərdən, proseslərdən və hərəkətlərdən onlara təhdid kimi;
- şəxs, cəmiyyət və dövlətin həyati maraqları arasında ən böyük uyğunluq (tarazlıq) əldə etmək dərəcəsi ilə xarakterizə edilən, sosial münasibətlər sisteminin optimal işləməsi üçün şərait yaradan, ehtiyacların ödənilməsi və maraqların həyata keçirilməsini təmin edən vəziyyət kimi;
- funksional baxımdan - Təhlükəsizlik "təhlükəsizliyin təmin edilməsi" anlayışı ilə eynilik təşkil edir və həyati maraqların vəhdətliyinə çatmış proses kimi, onlara qarşı təhdidlərin aşkarlanması və qarşısının alınması kimi , təhdid subyektlərinə müqavimət kimi qiymətləndirilmişdir.

Görünür ki, "milli təhlükəsizlik" anlayışının funksional baxımdan üçüncü variantı gömrük orqanlarının fəaliyyətinə ən yaxın olandır. Qədim zamanlardan

bəri gömrük xidməti sərhədlərin qorunması və malların qaçaqmalçılığına qarşı mübarizə ilə məşğul olmuşdur.

Müasir dövrdə, gömrük orqanlarının fəaliyyəti, onun istiqamətlərindən asılı olmayaraq, dövlət maraqlarını qorumağa yönəldilmişdir və hətta xarici ticarətin inkişafı üçün əlverişli şərait yaradılması vəzifəsi milli təhlükəsizliyi təmin etmək məqsədilə xarici ticarətə nəzarət və müəyyən bir dövlət iradəsini nəzərdə tutur. Gömrük qanunvericiliyi, şübhəsiz ki, nəinki dövlətin iqtisadi sabitliyini təmin etməyə, hətta bütövlükdə suverenliyin qorunmasına da yönəldilmişdir.

(Г.В.Матвиенко 2016 cı il səh 350).

Gömrük rəsmiləşdirilməsi qaydaları, gömrük vergi tutulma və gömrük nəzarətinin icra edilməsi, gömrük prosesinin təşkil edən gömrük prosedurlarının qaydaları, ümummilli idarə funksiyaları çərçivəsində həyata keçirilən gömrük orqanlarının nəzarət fəaliyyətinin həyata keçirilməsinin hüquqi rejimi – dövlət üçün malların arzuolunmaz hərəkətinin qarşısını alır.

Milli təhlükəsizlik bir neçə istiqamətdə gömrük prosesinin həyata keçirilməsi vasitəsilə təmin olunur:

- İqtisadi – milli qanunvericiliyə unifikasiya edilmiş gömrük və tariflərin tənzimlənməsi üçün vahid qaydaların müəyyən edilməsi;
- Müdafiə qabiliyyəti və ərazi bütövlüyünün qorunması;
- Qanuni qadağalar və məhdudiyyətlərə riayət olunmasını nəzərdə tutan, gömrük münasibətlərinin bütün iştirakçıları üçün vahid gömrük rejiminin yaradılması.

Azərbaycanda gömrük orqanları aşağıdakı əsas vəzifələri yerinə yetirirlər:

- Azərbaycanın gömrük siyasətinin inkişafında iştirak edir və bu siyasəti həyata keçirir;
- Qanunauyğunluğa əməl edilməsini təmin edir;
- Öz səlahiyyətləri daxilində Azərbaycanın suverenliyinin iqtisadi əsasları olan iqtisadi təhlükəsizliyi təmin edir;
- Ölkənin iqtisadi maraqlarını qoruyur;
- Ticarət - iqtisadi əlaqələrin gömrük tənzimlənməsi vasitələrini tətbiq edir;

- Gömrük rüsumları, vergilər və digər gömrük ödənişlərini toplayır;
- Azərbaycanda iqtisadi siyasət tədbirlərinin inkişafında iştirak edir, bu tədbirləri həyata keçirir;
- Malların ölkənin gömrük sərhədindən keçməsi üçün lisenziyalaşdırma qaydalarına riayət olunmasını təmin edir;
- Qaçaqmalçılıq, gömrük qaydalarının pozulması və vergi qanunları ilə mübarizə aparır, sərhəddən narkotik vasitələr, silahların keçirilməsi, Azərbaycan və digər xarici ölkələrin xalqlarının bədii, tarixi və arxeoloji mülkünün obyektlərinin, intellektual mülkiyyətin, heyvan və bitki növlərinin qanunsuz dövriyyəsini dayandırır;
- Gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsini aparır və təkmilləşdirir, gömrük sərhədindən həyata keçirilən ticarətin sürətləndirilməsinə şərait yaradır;
- Xarici ticarət gömrük statistikası və xüsusi gömrük statistika məlumatlarını saxlayır;
- Xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına rəhbərlik edir;
- Azərbaycanda subyektlərin, eləcə də müəssisə, qurum, təşkilat və vətəndaşların xarici iqtisadi əlaqələrinin inkişafına kömək edir;
- Dövlət təhlükəsizliyinin qorunması üzrə tədbirlərin həyata keçirilməsini təşviq edir;
- Ölkənin maraqları üçün vacib olan strateji və digər materialların ixracı üzərində nəzarət edir;
- Öz səlahiyyətləri daxilində valyuta nəzarəti həyata keçirir;
- Azərbaycanın beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini təmin edir, eləcə də beynəlxalq müqavilələrinin hazırlanmasında iştirak edir;
- Xarici ölkələrin gömrük və digər səlahiyyətli orqanları ilə, gömrük məsələləri ilə məşğul olan beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Dövlətin iqtisadi təhlükəsizliyini təmin etmək üçün gömrük orqanlarının əsas funksiyası ictimaiyyətlə əlaqələrin bütün iştirakçılarına, müəyyən edilmiş gömrük və hüquqi normalara riayət etməyə məcbur edən təsir göstərir. Dövlətin iqtisadi

təhlükəsizliyi, onun iqtisadi maraqları və onların qorunması müxtəlif aspektlərə malikdir: məsələn, daxili və xarici iqtisadi maraqlar var. Eyni zamanda daxili iqtisadi maraqlar sənaye və aqro-sənaye kompleksinin, nəqliyyat və kommunikasiyanın inkişafı ilə bağlı ola bilər. Gömrük orqanlarının iqtisadi təhlükəsizliyini və dövlətin iqtisadi maraqlarının qorunmasını təmin edən vasitələr və üsullar iki qrupa bölünür:

- Hüquqi tənzimləmə alətləri və hüquq-mühafizə fəaliyyəti vasitələri. Bu halda, gömrük orqanları qanunvericiliyin pozulmasına cəhdlərin qarşısını almaq üçün qanun pozuntusu cəhdlərini dayandırmağa imkan verən mövcud qanunvericiliyə əsasən hüquqi zorlama, sanksiyalar, qorunma tədbirlərindən istifadə edirlər. Bu qrup gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin əsasını təşkil edir;
- Xarici ticarət əlaqələrinin iqtisadi tənzimlənməsi vasitələri və üsulları. Bunlara: tariflərin tənzimlənməsi və qeyri-tarif tənzimlənməsi
- Beləliklə, iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün gömrük orqanları tərəfindən tətbiq edilən gömrük tənzimlənməsi dövlətin iqtisadi maraqlarını qorumaq, inkişaf proseslərini optimallaşdırmaq və ticarət və iqtisadi əlaqələrin səmərəliliyini təmin etmək üçün istifadə olunan bütün hüquqi, iqtisadi, təşkilati və digər tədbirləri və proqramları əhatə edir

Gömrük yoxlaması, yoxlanılan şəxsin (xarici ticarət sahəsində və ya ümumilikdə) maliyyə - təsərrüfat fəaliyyətinə təsir edən bir yoxlama növüdür. Gömrük yoxlaması aşağıdakı yoxlanılacaq şəxslərlə münasibətdə aparılır:

- Deklerant (bəyannaməçi);
- Gömrük nümayəndəsi;
- Daşıyıcı, o cümlədən gömrük daşıyıcısı;
- Buraxıldıqdan sonra mallara səlahiyyət verən şəxs və ya onun nümayəndəsi;
- Səlahiyyətli iqtisadi operator;
- Gömrüksüz ticarət mağazası, gömrük və digər anbarların sahibləri;

- Tabeliyində olan və ya saxladığı malların qeyri-qanuni hərəkəti barəsində informasiyaya malik olan şəxs;
- Müvafiq gömrük proseduru altında yerləşdirilən mallarla əməliyyatlarda birbaşa və ya dolayısı ilə əlaqəli digər şəxslər.

Gömrük yoxlaması zamanı təqdim olunmuş sənədlərdə və gömrük orqanında saxlanılan digər məlumatlarda göstərilən informasiyalar faktura və qanunla nəzərdə tutulmuş qaydada əldə edilmiş digər məlumatlarla mühasibat uçotu və hesabat məlumatları əsasında müqayisə edilir. ( Г.В.Матвиенко 1995 səh 165).

Gömrük yoxlanmasının, həmçinin nəzarət altında olan şəxslərin səbəblərindən asılı olaraq, gömrük orqanları aşağıdakıları yoxlayır:

- Malların gömrük proseduru altında yerləşdirilməsi faktları (gömrük sərhədindən malların hərəkətinin qanuniliyinin yoxlanılması);
- Gömrük bəyannaməsində və digər sənədlərdə göstərilən məlumatların dəqiqliyi (deklarantların, gömrük orqanlarının nümayəndələrinin yoxlanılması);
- Şərti olaraq buraxılmış malların istifadəsi və xaric edilməsinə dair məhdudiyyətlərə uyğunluq (gömrük rüsumları və vergilərinin ödənilməsi üzrə nəzərdə tutulmuş güzəştlərin təqdim olunması ilə buraxılmış malların və deklerantların yoxlanılması);
- Gömrük sahəsində fəaliyyətin tələblərinə əməl edilməsi;
- Malların sərbəst buraxılmasından sonra qüvvədə olan gömrük prosedurlarının şərtlərinə uyğunluq

Azərbaycanda qəbul olunmuş qərarlar, sərəncamlar əsasında milli təhlükəsizlik ən üst səviyyədə qorunur. Bu işdə gömrük siyasəti ən vacib istiqamətlərdən biridir. Yuxarıda sadalanmış proseslər gömrük işi bağlı fəaliyyətdə reallaşdırılaraq, ölkənin milli və iqtisadi təhlükəsizliyində önəmli rol oynayır. (Анисимов Е.Г, 2015 ).

Ümumilikdə, xarici ölkələrlə münasibətlər Azərbaycan gömrük təşkilatının gələcək işlərində bu ölkələrlə yaxın əlaqələr qurmasına, qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsinə çox güclü təkan verəcəkdir.

Cədvəl 2.3 –də Azərbaycanın 2010-2017-ci illər arasında xarici ticarətin mal qrupları ixracat miqdarı öz əksini tapmışdır. Diri heyvanlar üzrə göstəricilərə diqqət yetirsək görərik ki, 2010-cu illə müqayisədə 2017-ci ildə ixracat həcmi 5,6 min $ -dan 1650,4 $-a qədər yüksəlmişdir. Yeməli meyvələr və qoz-fındıq üzrə göstəricilər 2010-cu ildə 112484.3 min ABŞ dolları olmuş, 2017-ci ildə isə 2,6 dəfə artaraq, 292736.7 olmuşdur. Dənli bitkilər üzrə ixracat həcmində isə geriləmə müşahidə olunmuşdur: 2010-cu ildə 174.7 min ABŞ dolları həcmində olan ixracat 2017-ci ildə 15 dəfə azalaraq, 11,9 min ABŞ dolları olmuşdur. Unüyütmə-yarma sənayesi məhsulları, səməni, nişastalar üzrə xarici ticarət həcmi əvvəlki illərlə müqayisədə 2 dəfə artaraq, 59,9 min ABŞ dollarına çatmışdır. Təmizlənməmiş təbii şellak, kitrələr, qatranlar üzrə göstəricilər 2010-cu ildə 11.7 min ABŞ dolları, 2017-ci ildə isə 1146.5 min ABŞ dollarını əks etdirir.

Yuxarıda göstərilmiş şəkilə əsasən demək olar ki, 2018-ci ilin yanvar-iyun ayları ərzində əmtəə istehsalı qeyri-neft emal sənayesinin çox bölmələrində, həmçinin içki istehsalında (5.6%), tütün məmulatlarının istehsalında (3.4 dəfə), toxuculuq sənayesində (64.1%), geyim istehsalında (10.3%), kimya sənayesində (0.4%), tikinti materiallarının istehsalında (34.0%), mettalurgiya sənayesində (15.0%), elektrik avadanlıqlarının istehsalında (84.1%), avtomobillərin istehsalında (16,6 dəfə), mebellərin istehsalında (2.0 dəfə) və s. sahələrdə artmışdır (economy.gov.az – 2018-ci ilin birinci yarımilliyi üzrə qeyri-neft sektorunun inkişafı barədə ).

Qeyd etmək lazımdır ki, gömrük oqranları qarşısında duran ən mühüm məsələ yüksək keyfiyyətli gömrük xidmətinin yaradılmasıdır. Bununla yanaşı, məhz gömrük ixtisası üzrə təhsil alanların çoxaldılması da, bu vəzifələrdən biridir. Bu vəzifələrin yerinə yetirilməsi yolunda ilk mərhələ kimi Dövlət Gömrük Komitəsinin tədris üzrə mərkəzinin qurulması ilə gömrük əməkdaşlarının hazırlıq və ixtisasartırma işləri müəyyən mənada öz həllini tapmışdır.

Gömrük işində əsas problemlərindən biri kimi onunla təhlükəsizliyin asanlaşdırılmasına tələbatın hansı formada balanslaşdırılmasıdır. Gömrük təşkilatları son zamanlarda gömrük proseslərinə təhlükəsizlik cəhətlərinin daha sürətli formada inteqrasiyasının artırılmasına nail olublar. Bu gün gömrük siyasəti xarici ticarətin

stabil axınına imkan yaratmaqla beynəlxalq təchizat zəncirində effektiv nəzarətin həyata keçirilməsinə təkan verməlidir.

Aparılan tədqiqatlar göstərir ki, yaxın zamanda Azərbaycanda gömrük sisteminin bir vəhdət halında inkişaf etməsi göz önünə çıxacaqdır.

## Fəsil 3. Azərbaycanda gömrük xidmətlərinin idarə edilməsinin xarici iqtisadi fəaliyyətin tənzimlənməsində rolu.

### 3.1 Dövlətin gömrük idarəçiliyinin mahiyyəti, məqsədləri və vəzifələri.

Dövlət gömrük idarəçiliyi – qərarların qəbul edilməsi və gömrük sisteminin mütəşəkkilliyinin inkişafı yolu ilə gömrük xidməti sahəsində vəzifələrin həyata keçirilməsi ilə bağlı olan, dövlət xidmətinin xüsusi bir növüdür. Gömrük idarəçiliyinin vəzifələri nəzəriyyə halında – bir-birindən qarşılıqlı məntiqi əlaqədə olan gömrük obyektləri sahəsində vahid sistemin inkişaf etdirilməsi kimi nəzərdə tutula bilər. Bu nəzəriyyənin elementlərinin tərkibinə daxildir:

- Müəyyən məntiqi-metodoloji prinsipləri özündə birləşdirən gömrük menecmenti anlayışları sistemi;
- Gömrük idarəçiliyinin ümumi və xüsusi nəzəri modelləri;
- Gömrük menecmentinin qanunauyğunları, xüsusiyyətləri;
- İdarəetmə nəzəriyyəsinin müasir nəzəri baxışları, ifadələri və onları birləşdirən gömrük obyektlərinin idarəetmə inteqrativ nəzəriyyəsi;
- Gömrük idarəetməsinin üsulları, alətləri və metodları.

Gömrük idarəetməsinin effektivliyi birbaşa əlaqəli vəzifələrin həlli ilə əlaqədardır. Birinci vəzifə - xarici iqtisadi və gömrük idarəçiliyi fəaliyyətinin tənzimlənməsi üçün optimal mexanizm yaratmaqdır. İkincisi isə rasional və optimal tənzimləmə strategiyasının formalaşdırılmasıdır. Proseslərin idarəolunmasının və mexanizmlərin formal təqdimatının verilmiş mərhələsində vəzifələri aşağıdakı formada təşkil etmək olar: faktor sahələri detallaşdırmadan, dəqiq hədəf funksiyalar olmadan, tənzimlənmə mexanizmləri və obyektlərin müvafiq parametrləşdirilməsi və strukturlaşdırılması olmadan.

Xarici iqtisadi əlaqələrin tənzimlənməsi mexanizmləri üzrə vəzifələr, bu sistemi optimallaşdırmaq məqsədilə XİF-in maliyyə və əmtəə axınlarının sisteminə iyerarxik təsir göstərən bir mexanizmin tərtib edilməsi şəklində formalaşdırılır. Bu vəzifələrin həlli maliyyə-əmtəə axınları sistemində prinsiplər, tədbirlər və təsir alətlərinin müəyyən edilməsinə, onların qarşılıqlı əlaqələri və xüsusiyyətlərinə və ümumilikdə - tənzimləyici mexanizmlərin hazırlanmasına əsaslanır.

Qeyd etmək vacibdir ki, maliyyə və əmtəə axınlarının sisteminin parametrik və ya struktur-parametrik optimallaşdırılması problemlərinin həlli ciddi problemlər yaradır. Onlardan ikisi əsasdır: teorik və texnoloji. Birincisi, maliyyə və əmtəə axınları sisteminin kompleks riyazi modellərinin inkişafına və müvafiq optimallaşdırma metodlarından istifadəsinə olan ehtiyacla bağlıdır. Bu problemin həlli iki mərhələdə həyata keçirilə bilər:

- Birincisi, sistemi sadələşdirilmiş şəkildə optimallaşdırmaq, məsələn, analitik modellərdən istifadə etməklə;
- İkincisi isə, daha uyğun modellərdən istifadə etmək, məsələn, imitasiya və ya genetik olan metodlardan.

İkinci problem, nəzarət rejimində optimallaşdırma problemlərinin həlli üçün texnologiya yaratmağın zəruriliyi ilə müəyyən edilir. Fikrimizcə, bu problemlərin həlli Azərbaycanın xarici ticarət sahəsində gömrük idarəçiliyində vahid informasiya-analitik texnologiyalı gömrük idarəetməsinə və gömrük fəaliyyəti sferasına əsaslanan konseptual paradiqma çərçivəsində effektiv nəticələr verə bilər.

Gömrük idarəçiliyinin məqsədi Azərbaycan ərazisində gömrük nəzarəti və ticarətin tənzimlənməsi üçün vasitələrin daha səmərəli istifadəsini təmin etmək, daxili bazarı qorumaq üçün ticarət və analitik vəzifələrin həyata keçirilməsində iştirak etmək, milli iqtisadiyyatın inkişafını stimullaşdırmaq, strukturlaşdırma düzəlişlərini təşviq etmək və ölkənin iqtisadi siyasətinin digər vəzifələrini yerinə yetirməkdir. (studopedia.su – Государственное управление таможенным делом).

İdarəetmənin təşkilati strukturları deyərkən aşağıdakı elementlər əsas götürülür:

- İdarəetmə halqaları;
- İdarəetmə səviyyələri;
- Qarşılıqlı əlaqələr.

Gömrük idarəçiliyində idarəetmə halqaları aşağıdakılara bölünür:

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi;

- DGK-nın şöbələri;
- Gömrükxanalar və onların bölmələri;
- Müvafiq idarəçilik və professional funksiyaları həyata keçirən müxtəlif mütəxəssislər.

Bu idarəetmə halqaları arasında müxtəlif münasibətlərin müxtəlif növləri mövcuddur:

- Şaquli idarəçilik münasibətləri;
- Gömrükxana rəisi və gömrükxana şöbələri;
- Üfüqi idarəçilik münasibətləri;
- Gömrük postu – Gömrük postu;
- Gömrükxana – Gömrükxana;
- Diaqonal idarəçilik münasibətləri və s.

Şaquli idarəçilik münasibətləri rəhbərlə onun tabeçiliyində olan nümayəndələr arasında baş verir, üfüqi münasibətlər isə 2 yerə bölünür: kollegial və paralel münasibətlər. Kollegial – bir rəisin tabeçiliyində olan əməkdaşlar arasında, paralel – isə eyni mövqedə olan və bir-birilə fikir mübadiləsi etmək zərurətinin yarandığı şöbələrdə əməkdaşlar arasında olan münasibətlərdir.

Gömrük orqanlarının idarəçiliyində hədəf götürülən məqsədlər Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Prezidentin və Hökumətin eləcə də, DGK-nın hüquqi normativ sənədlərində müəyyən edilmişdir. Azərbaycan Respublikasının Gömrük Xidmətinin missiyası respublikamızın suverenliyinin, iqtisadi və milli təhlükəsizliyinin, əhalinin sağlamlığının qorunması, beynəlxalq ticarətin asanlaşdırılması, eləcə də gömrük sahəsində pozuntulara və beynəlxalq terrorizmə qarşı mübarizə aparılmasından ibarətdir. (A.Ş.Şəkərəliyev, gömrük işinin təşkili və idarə edilməsi bakı – 2018 səh 350).

Öz fəaliyyətini müasir dövrün tələblərinə uyğunlaşdırmağa çalışan Dövlət Gömrük Komitəsi son dövrlər ərzində xarici ölkələrin gömrük qurumları ilə işgüzar əlaqələr qurmaqla əməkdaşlığı genişləndirmiş, dünyanın qabaqcıl ölkələrinin təcrübələrindən yararlanmaqla respublikamızın iqtisadi

təhlükəsizliyinin, suverenliyinin və maraqlarının qorunmasında, Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatına inteqrasiyasında, mühüm rol oynayır. Bununla əlaqədar olaraq, gömrük siyasəti xarici münasibətlərdə əks olunaraq iqtisadiyyatın daha da möhkəmlənməsinə əsas vermişdir.

**Şəkil 3.1 Dövlət Gömrük Komitəsinin Strukturu**




**Mənbə**:(http://customs.gov.az 2018 ci il).

Geniş mənada bir institut, cəmiyyət və dövlətlə birgə tarixən qurulmuş və inkişaf etmiş, yüksək səviyyədə təşkil edilmiş sosial-iqtisadi sistemli təşkilatdır, xüsusi əhəmiyyətli sosial ehtiyaclara cavab vermək və ya müəyyən sosial əhəmiyyətli məqsədə nail olmaq üçün insanların fəaliyyətlərini birləşdirir. Dar

mənada institut – müəyyən bir təşkilatın formalaşdırılması və ya inkişaf etdirilməsi ilə bağlı fikir, qaydalar və mexanizmlərin bütöv bir dəstidir.

Azərbaycanda gömrük xidmətinin institusionallaşması istiqamətində əsas tələblər aşağıdakılar hesab olunur ( Cədvəl 3.1 ).

Ölkəmizin bazar iqtisadiyyatına doğru inkişaf yolunda olması, aparılan islahatlar cəmiyyətdə siyasi və iqtisadi maraqları olan, eləcə də dövlətin apardığı siyasətə və strategiyaya qarşı çıxan qrupların yaranmasına səbəb olmuşdur. Bütün bu hadisələr gömrük münasibətlərinə eləcə də, gömrük siyasətinə öz təsirini göstərir.

Son dövrlərdə gömrük sahəsində mühüm dəyişikliklərin olması bu sahədə idarəetmə üzrə işlərin daha mürəkkəbləşməsinə zəmin yaratmışdır. Həmçinin, azad iqtisadi zonalar və gömrük zonalarının meydana gəlməsinə şərait yaratmışdır.

Azərbaycanın dünya bazarına inteqrasiya olunması, Ümumdünya Ticarət Təşkilatına girmək istəyi və digər təşkilatlarla əlaqələri onun xarici iqtisadi fəaliyyətinin, bununla yanaşı, gömrük siyasətinin beynəlxalq təşkilatın tələblərinə uyğunlaşdırılmasını tələb edir. Burada hüquqi bazanın təkmil hala salınması, əmtəə nomenklaturasının, gömrük prinsipləri və qaydalarının işlənilməsi, gömrük alətlərinin unifikasiyası kimi islahatlar nəzərdə tutulur. ( unec.edu.az 2019 cu il).

Müasir dövrdə beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsi ilk növbədə ölkələrin qarşılıqlı əlaqələrinin daha da təkmilləşdirilməsini tələb edir. Bu zaman respublikamızın dünya təsərrüfat sisteminə inteqrasiyasına ölkənin iqtisadi təhlükəsizliyi baxımından yanaşılmalı və Azərbaycanın milli maraqlarına zidd olan hansısa bir yanlış addıma yol verilməməlidir.

## 3.2 Gömrük sisteminin inkişafı və modernləşdirilməsi yolu ilə iqtisadiyyatın beynəlxalq arenada rəqabətqabiliyyətliliyinin artırılması.

Azərbaycan Respublikasının (AR) dünya iqtisadiyyatına inteqrasiyası ölkəmizin beynəlxalq iqtisadi əlaqələrinin genişləndirilməsində, xarici iqtisadi fəaliyyət göstəricilərinin artımında və gömrük xidmətləri bazarının intensiv formalaşmasında öz əksini tapır.

Gömrükçülərimizin fikrincə, gömrük siyasətinin formalaşması prosesinə təsir edən amillər aşağıdakı xüsusiyyətlərə əsasən üç əsas qrupda toplana bilər:

- Birinci qrup - ictimai-siyasi xarakterli amillər. Suverenliyin əldə olunmasından dərhal sonra, respublikada müxtəlif qüvvələrin hakimiyyətə qarşı mübarizəsi daha da gücləndi. Gömrük xidmətinin formalaşmasının başlanğıcı ölkənin siyasi həyatında çətin bir dövrə və Ermənistanın azərbaycan ərazilərinin işğalına başlamasına tuş gəldi.
- İkinci qrup - iqtisadi və hüquqi xarakterli amillər. Ənənəvi kooperativ və birbaşa iqtisadi əlaqələrin pozulması, respublikalar arası ödəmə sisteminin məhv edilməsi və onilliklər ərzində yaradılan satış bazarlarının itməsi ölkənin iqtisadiyyatının paralizasiyasına gətirib çıxardı. Bu vəziyyətdə, tələbatın yüksək səviyyədə təmin edilməsi sənaye-texniki və istehlak məqsədli əsas məhsulların idxalı ilə mümkün olmuşdur.
- Üçüncü qrup- professional etnik xarakter daşıyır. Gömrük Komitəsinin yaradılması zamanı müvafiq təcrübə və ixtisaslara malik olan gömrük işçilərinin sayı yüz nəfərə yaxın olmuşdur. Əvvəlcə iqtisadiyyatın müxtəlif sahələrindən olan mütəxəssislər və qismən isə bilik və bacarıqların aşağı səviyyəli olanlar işə götürüldü. Zəif idarəetmə sistemi gömrük gəlirlərinin mütləq rəqəmlərində öz əksini tapmışdır.

Sözsüz ki, gömrük işində insan faktoru əsas amillərdən biridir. Ümummilli lider H.Əliyev gömrük orqanlarında vəziyyəti izah edərək aşağıdakı fikirləri ifadə etmişdir: "Təəssüf ki, gömrük işçilərinin şəxsi maraqları üçün, mənfəət əldə etmək üçün xidməti mövqelərindən istifadə edilməsi halları var. Bununla barışmaz mübarizə aparılması lazımdır”.

Hesab edirəm ki, “Əgər bütün gömrük orqanları qanunların, hüquqların, nizamnamənin tələblərinə cavab verərsə, gömrük xidmətinin gəlirləri çox yüksək olacaq, respublikanın iqtisadiyyatına heç bir ziyan dəyməyəcək ".

Keçid dövrünün faktorları Azərbaycanın gömrük xidmətinin formalaşması prosesinə mənfi təsir göstərmişdir. Hazırlanan və həyata keçirilən gömrük xidmətinin inkişafı proqramı bu mənfi təsirlərin aradan qaldırılmasına yönəlmişdir.

Respublika iqtisadiyyatının inkişafı xüsusiyyətlərinə əsasən, Dövlət Gömrük Komitəsi müvafiq strategiyanı hazırlayarkən aşağıdakı əsas vəzifələri müəyyən etmişdir:

- Göndərilmə metodundan asılı olmayaraq malların tam gömrük rəsmiləşdirilməsini təmin etmək;
- Gömrük prosedurlarının sadələşdirilməsi və rəsmiləşdirilmə müddətinin azaldılması;
- Yük və yükgöndərənlər haqqında ilkin məlumatların alınması;
- Gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması;
- Digər hüquq-mühafizə orqanları ilə birgə, narkotiklərin idxalının, respublikanın gömrük ərazisindən tranzitinin qarşısının alınması;
- Valyuta nəzarəti;
- Gömrük sərhədindən malların hərəkəti üzrə uçotun avtomatlaşdırılmasının təkmilləşdirilməsi işinin başa çatdırılması;
- Yoxlama işinin təkmilləşdirilməsi, müxtəlif növ nəzarət formalarının istifadəsi, ayrıca identifikasiya və sənədli yoxlama texnologiyasının tətbiqi;
- Beynəlxalq tələblərə uyğun olaraq gömrük sənədlərinin unifikasiya edilməsi;
- Boru kəməri vasitəsilə nəql edilən malların faktiki nəzarətinin təşkil edilməsi;
- Qeyri-tarif tənzimləyici tədbirlərə uyğunluq nəzarəti texnologiyasının təkmilləşdirilməsi;
- İntellektual mülkiyyət obyektlərin hərəkətinə nəzarət üçün təşkilati və hüquqi şərtlərin formalaşdırılması.

Xarici əlaqələrin genişləndirilməsi və gücləndirilməsi, ticarət və iqtisadi tərəfdaşların sayının artması bütün dövlət idarəetmə mexanizminin baş verən hadisələrə yeni bir yanaşmasını şərtləndirir. Bununla əlaqədar olaraq, xarici iqtisadi fəaliyyətinin tənzimlənməsi xüsusi əhəmiyyət kəsb edir. Xarici iqtisadi əlaqələr genişləndikcə, H.Əliyevin prezidentliyi dövründə ölkəmiz bir çox uğurlara imza atmışdır. Məsələn, Azərbaycanın MDB üzvü olan ölkələrlə ticarət və iqtisadi əməkdaşlığı, Gürcüstan, Türkiyə, Özbəkistan, Böyük Britaniya, Litva, İran və

Pakistan kimi ölkələrlə iqtisadi münasibətlərin möhkəmləndirilməsi sayəsində xarici ticarətdə böyük uğur qazanılıb. Azərbaycan Ümumdünya Gömrük Təşkilatı, GUAM İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olmuşdur. Dünya Ticarət Təşkilatına və Avropa Birliyinə üzvlüyə qəbulu isə uğurla inkişaf etdirilir (unec.edu.az - «регулирование внешнеэкономической деятельности и эволюция таможенной политики азербайджана»).

GUAM – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət olan transregional təşkilat, Azərbaycanın həm özü, həm də digər dövlətlər üçün cəhdlərin birləşdirilməsi məqsədi daşıyır. Bu, sülhün təmin edilməsində tərəfdaşlıq, effektiv və təhlükəsiz nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsində əməkdaşlıq kimi istiqamətləri özünə daxil edir, üzv olan ölkələrin ümumilikdə inkişaf etməsinə xidmət göstərir (files.preslib.az – Azərbaycan Beynəlxalq Arenada).

**Cədvəl 3.2 2018-ci il üzrə xarici ticarətin gömrük statistikası**

| Göstəricilər | Min ABŞ dolları ilə | Milyon ABŞ dolları ilə | İxrac və idxalın xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Xarici ticarət dövriyyəsi** | 5 546 139.38 | 5 546.14 | 100.00 |
| **O cümlədən** | | | |
| **İxrac** | 3 355 033.87 | 3 355.03 | 60.49 |
| **İdxal** | 2 191 105.51 | 2 191.11 | 39.51 |
| **Xarici ticarət saldosu** | 1 163 928.36 | 1 163.92 | - |

**Mənbə**: (Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası - Hesabat dövrü: 01.01.2018 – 31.03.2018.)

2018-ci ilin ilk 10 ayında ölkəmizin xarici ticarət həcmi üzrə hesabatda hüquqi və fiziki şəxslərin 182 ölkədəki tərəfdaşları ilə ticarət əməliyyatları reallaşdırması, 109 ölkəyə mal ixrac olunması, 173 ölkədən idxal olunması əks olunmuşdur. Dövlət Gömrük Komitəsinin verilənlərinə görə, ixracın 31,0 %-ni İtaliyaya, 8,7 %-ni Türkiyəyə, 6,2 %-ni İsrailə, 4,1 %-ni Almaniyaya, 3,2 %-ni Kanadaya və s. ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Ölkəmizə idxal edilən malların ümumi dəyərinin 16,2 %-i Rusiya, 14,0 %-i Türkiyə, 10,2 %-i Çin, 5,7 %-i Almaniya, 4,6 %-i ABŞ, 2,4 %-i Birləşmiş Krallıq, və digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür (stat.gov.az – xarici ticarət əlaqələri haqqında).

2007-2011-ci illərdə Azərbaycan Respublikasının gömrük sisteminin inkişafı üzrə Dövlət Proqramında onun inkişafının sürətlənməsinin məqsədləri, habelə gömrük orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi ilə bağlı olan tənzimləyici və maddi-texniki təminat bazasının təkmilləşdirilməsi üçün xüsusi tədbirlər müəyyənləşdirilmişdir. Bu proqram dövlət siyasətinin həyata keçirilməsində mühüm mərhələ olmuş, uzunmüddətli perspektivdə gömrük sahəsinin davamlı inkişafı üçün əhəmiyyətli olan yeni aktual vəzifələr, istiqamət və tədbirlər müəyyənləşdirilmişdir. Sənədə əsasən "Dövlət Proqramının məqsədi gömrük sferasında Azərbaycanda dövlət siyasətinin daha müvəffəqiyyətli həyata keçirilməsini, ölkənin iqtisadi inkişafının əsas istiqamətlərindən biri kimi gömrük sisteminin dinamik inkişafını təmin etməkdir".

Bu vəzifələr arasında qeyd olunmuşdur:

- Azərbaycan Respublikasının gömrük sərhədində əmtəə dövriyyəsinin sürətlənməsinin təmin edilməsi və təsərrüfat subyektləri üçün əlverişli şəraitin yaradılması;
- Monopoliya fəaliyyətinin məhdudlaşdırılması və ədalətsiz rəqabətin qarşısının alınması sahəsində tədbirlərin sürətləndirilməsi;
- İxracın təşviqi, daxili bazarın müdafiəsi sahəsində gömrük tənzimləmə mexanizminin təkmilləşdirilməsi;
- Gömrük mexanizminin maddi-texniki bazasının gücləndirilməsi.

Müəyyən edilmiş tapşırıqlara əsasən, aşağıdakı istiqamətlər müəyyənləşdirilmişdir:

- Qanunvericilik bazasının və gömrüyün idarə edilməsinin təkmilləşdirilməsi;
- Gömrük nəzarəti metodlarını beynəlxalq standartlara uyğunlaşdırmaq və gömrük prosedurlarının avtomatlaşdırılması;

- Gömrük sahəsində qaçaqmalçılıq və digər cinayətlərə qarşı mübarizənin gücləndirilməsi;
- Gömrük infrastrukturunun inkişafı;
- Beynəlxalq əməkdaşlıqların genişləndirilməsi və kadrların hazırlığının təkmilləşdirilməsi.

Dövlət Proqramının məqsəd və vəzifələrində nəzərdə tutulmuş tələblərə riayət edərək dövlətimiz beynəlxalq gömrük strukturlarının və əməkdaşlıq proqramlarının fəaliyyətində fəal iştirak edir. Gömrüyün modernləşdirilməsi sahəsində belə strukturlardan biri də CAREC - Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq proqramıdır. Bu struktur, üzv dövlətlərin əməkdaşlığı üçün beynəlxalq forumdur, əməkdaşlıq vasitəsilə inkişafı təşviq etmək üçün birlikdə işləyən 6 tanınmış beynəlxalq təşkilat tərəfindən dəstəklənir.

CAREC-in məqsədi, Mərkəzi Asiya ölkələrinə dörd əsas sahədə regional əməkdaşlığın inkişafı yolu ilə iqtisadi potensialını həyata keçirməkdə kömək etməkdir: nəqliyyat, ticarətin təşviqi, ticarət siyasəti və energetika. CAREC-in üzvləri Azərbaycan, Əfqanıstan, Çin, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistandır. CAREC, Asiya İnkişaf Bankı (AİB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Beynəlxalq Valyuta Fondu (MF), İslam İnkişaf Bankı (İİB), Birləşmiş Millətlər Təşkilatının İnkişafı Proqramı və Dünya Bankı tərəfindən dəstəklənir.

Milli qanunvericilik bazası və gömrük tənzimlənməsinin təkmilləşdirilməsi probleminin bir neçə aspektləri var. Bunlar arasında: gömrük oqranlarının fəaliyyəti, şəffaflığının daha yüksək səviyyədə təkmilləşdirilməsi; gömrük nəzarəti metodlarını beynəlxalq standartlara uyğunlaşdırmaq; gömrük prosedurlarının avtomatlaşdırılması; qaçaqçılıq və digər gömrük pozuntularına qarşı mübarizənin gücləndirilməsi və digərlərini fərqləndirmək olar.

Məlumdur ki, gömrük sisteminin formalaşmasında və Azərbaycan Respublikasında gömrük xidmətinin həyata keçirilməsində 1997-ci ildə qəbul olunmuş Gömrük Məcəlləsi və digər normativ-hüquqi sənədlər əsas rol oynayır. Ötən dövrdə də Azərbaycan sosial-iqtisadi inkişafda və xarici iqtisadi əlaqələr

sahəsində də böyük uğurlar qazanmışdır. Ölkəmizin bir sıra beynəlxalq konvensiyalara, təşkilatlara qoşulması buna əsas vermişdir.

Beləliklə, nəinki ticarət və iqtisadi əlaqələrin coğrafiyasının genişləndirilməsi, ixrac-idxal əməliyyatlarının həcminin artması, həmçinin Azərbaycanın beynəlxalq arenaya inteqrasiyasının intensivləşdirilməsi gömrük xidməti və gömrük əməliyyatları sferasında qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyini zəruri edir. İnkişaf etmiş ölkələrin təcrübəsi də Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin təkmilləşdirilməsi, yeni Gömrük Məcəlləsinin qəbul edilməsi məsələsində müəyyən əhəmiyyətə malikdir.

Bu baxımdan Avropa, Cənubi Qafqaz və Asiya ölkələrinin "Böyük İpək Yolu ölkələrinin ticarətinin asanlaşdırılmasında gömrük administrasiyalarının rolu" mövzusunda (Batumi, oktyabr 2011), gömrük xidmətləri rəhbərlərinin iştirakı ilə keçirilən beynəlxalq konfrans xüsusi maraq doğurur. Konfransda Cənubi Qafqaz ölkələrinin gömrük qanunvericiliyinin modernləşdirilməsinə xüsusi diqqət yetirilmiş və gömrük prosedurlarının səmərəliliyi və sadələşdirilməsi məqsədilə gömrük işinin koordinasiya səviyyəsinin artırılmasında, həmçinin bölgə ölkələri arasında ticarətin inkişafı və qaçaqmalçılıqla mübarizədə əminlik nümayiş etdirilmişdir.

Beynəlxalq ticarət əlaqələrinin inkişafı və Azərbaycanın daxili bazarının qorunmasında gömrük tarifinin tənzimlənməsi məsələsi kiçik əhəmiyyət daşımır.
Bu baxımdan, gömrük orqanlarının əsas vəzifələrindən biri geniş çeşiddə gömrük tənzimləmə alətlərinin hazırlanması və onların əhatə dairəsinin genişləndirilməsidir.

Azərbaycanın yeni gömrük qanunvericiliyində malların ixracına və idxalına avtomatlaşdırılmış əsasda gömrük rəsmiləşdirilməsi əməliyyatlarının təşkili məsələlərinə xüsusi diqqət yetirilmişdir. Qəbul edilmiş standartlar bir tərəfdən gömrük rəsmiləşdirilməsinin səmərəliliyinin artırılmasını təmin edir və digər tərəfdən, sərf olunan minimum vaxtın azaldılmasını təmin edir ki, bu da xarici ticarət fəaliyyətinin iştirakçılarına xidmət səviyyəsinin artırılması üçün vacibdir. Bu baxımdan, gömrük sərhədi keçid məntəqələrində nəzarət prosedurlarını çox

asanlaşdıran "vahid dayanacaq" prinsipi beynəlxalq təcrübəni təmsil edən istiqamətlərdəndir. Bu prinsip tətbiq olunduqdan sonra nəqliyyat vasitələri bir dəfə dayandırılır və daşınan malların üzərində hər cür nəzarət həyata keçirilir, gömrük sərhədləri arasında daşınan malların təkrar nəzarəti aradan qaldırılır və sərhəd keçid məntəqələrində nəqliyyat vasitələrinin dayanma vaxtı əhəmiyyətli dərəcədə azaldılır.

Gömrük hüquqpozmaları sahəsində və digər iqtisadi cinayətlərin qarşısının alınması məqsədi ilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq gömrük orqanlarına müvafiq hüquqlar və səlahiyyətlər verilir. Məsələn, araşdırma aparılması, sorğu və ilkin araşdırma, habelə gömrük sahəsində pozuntulara qarşı əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək. Başqa sözlə, gömrük işçiləri tərəfindən alınan qərarların qanuniliyi və etibarlılığının təmin edilməsi xarici iqtisadi fəaliyyət sahəsində cinayətlərə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının gömrük orqanlarının əsas vəzifələrindən biridir (elibrary.az - О развитии и совершенствовании таможенной системы азербайджана - о.ф.Эфендиев).

Azərbaycan Gömrük Xidməti dünya gömrük ailəsində özünəməxsus yer tutmuş və beynəlxalq qurumlarla əməkdaşlıq əlaqələrini daim inkişaf etdirmişdir. Bu baxımdan, hələ 2003-cü ildə Ümumdünya Gömrük Təşkilatı Regional Tədris Mərkəzinin Bakı şəhərində fəaliyyətə başlaması, 2011-ci ildə isə Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Regional Ofisinin də Bakı şəhərində yaradılması təsadüfi olmamışdır. Ofisin fəaliyyəti üçün Azərbaycanın seçilməsinin səbəbləri ilk növbədə ölkə rəhbərliyinin gömrük xidmətinə göstərdiyi qayğı və həmçinin, gömrük xidmətinin əldə etdiyi uğurlardır. Belə ki, bir çox inkişaf etmiş ölkələr, o cümlədən, Avropa İttifaqına daxil olan dövlətlər bu ofisin öz ölkələrində yaradılmasını istəmişlər. Ancaq bu məsələ Azərbaycanın xeyrinə həll olunmuş, 174 ölkə Azərbaycana səs verərək, bu ofisin Azərbaycanda tikilməsinə təkan vermişlər. Avropa regionu və MDB üzrə 51 ölkənin gömrük xidmətini əhatə edən ofisin Bakı şəhərində fəaliyyət göstərməsi həm Azərbaycanın dünyada daha çox tanınmasına, həmçinin yerli gömrük

mütəxəssislərinin bu ofisdə işləyərək dünya standartlarına uyğun daha yüksək dərəcə əldə etməsinə və onların təkmilləşməsinə imkan yaradacaqdır (customs.gov.az - Müstəqil Azərbaycanın Gömrük Xidməti dinamik inkişaf yolu ilə uğurla addımlayır).

Ümummili lider H.Əliyevin yolunun davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gömrük sistemində ənənələrin qorunub saxlanılması və daha da inkişaf etdirilməsini daim diqqətdə saxlayır, gömrük orqanlarının işi daim dövlət tərəfindən dəyərləndirilir və gömrük işçilərinə diqqət və qayğı göstərilir. İnanıram ki, Azərbaycanda aparılan gömrük siyasəti gələcəkdə ölkəmizin daha yüksək pillələrdə olmasına təkan verməklə, ölkənin iqtisadi gücünün artırılmasında, əhalinin sosial vəziyyətinin yüksəldilməsində, cənab Prezidentimiz İlham Əliyevin reallaşdırdığı siyasi kursun tətbiqində vacib rol oynayacaq, Azərbaycanın beynəlxalq nüfuzu artacaq, xalqımızın firavan yaşamasına öz tövhələrini verəcəkdir.

## Nəticə və təkliflər

Gömrük xidməti xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün dövlətin əsas vasitələrindən biridir və yalnız Azərbaycan sahibkarlarının beynəlxalq əməkdaşlığa cəlb olunmasını stimullaşdırmaq, yerli və xarici sənayeçilər arasında ədalətli rəqabətin təşviqi məqsədilə həyata keçirilən tədbirlər sayəsində iqtisadiyyatda müsbət nəticələr əldə etmək mümkündür.

Dissertasiya işi xarici iqtisadi fəaliyyətin tənzimlənməsi və gömrük siyasətinin inkişafı ilə bağlı araşdırma məsələlərinə həsr olunmuşdur. Tədqiqatın nəticələrinə görə, xarici iqtisadi və xarici ticarət fəaliyyətinin tənzimlənməsi yalnız gömrük qaydalarının tam və dəqiq yerinə yetirilməsi üçün şərait yaradıldığı təqdirdə mümkündür.

Ölkədə baş verən gömrük prosesləri operativliyin keyfiyyətinin və icrasının tamlığının müəyyən göstəricilərinə malikdir – obyektivlik; məxfilik; səhvlərin mövcudluğu; xarici iqtisadi fəaliyyət iştirakçılarının şikayətlərinin olması; ixrac üçün qadağan edilən mal və texnologiyalar ixracına qarşı zəmanətli qorunma; zərərli, təhlükəli və qeyri-standart malların idxalına qadağa qoyulmasına qarşı zəmanətli qorunma.

Dövlətimizin gömrük orqanları gömrük proseslərinin keyfiyyətini təmin etməkdə və eyni zamanda, Azərbaycan Respublikasının gömrük sərhədindən ticarətin sürətlənməsinə şərait yaratmaqda məsuliyyətlidirlər. Bu, ciddi yanaşma tələb edir və buna görə də gömrük işçiləri öz əməyinin yaxşılaşdırılması istiqamətində daim işləməli, eləcə də aşağıdakı sahələrdə təkmilləşməlidirlər:

- Xarici iqtisadi fəaliyyət iştirakçıları ilə ünsiyyət qurma prosedurlarını hazırlamaq, bu əlaqələri daim səmərəliləşdirmək;
- Gömrük proseslərinin texnologiyasını və onların keyfiyyəti idarəetmə sistemini təkmilləşdirmək;
- Gömrük işçilərinin kvalifikasiyalarını artırmaq;
- Gömrük orqanlarının işçiləri arasında öz əməyinin keyfiyyəti üzrə məsuliyyət yaratmaq üçün daxili motivasiya mexanizmini təkmilləşdirmək;

- Xarici iqtisadi fəaliyyətdə iştirakçılarla işləmənin prosedurlarını davamlı şəkildə təkmilləşdirmək üçün gömrük proseslərinin keyfiyyətinin daxili yoxlanılmasının sistemləşdirilməsi mexanizmini hazırlamaq;
- Dövlət tənzimlənməsinin həyata keçirilməsi və tənzimlənmə səylərinin əlaqələndirilməsi üçün mexanizm hazırlamaq;
- Digər hüquq-mühafizə orqanları ilə birgə həyata keçirilməsi üçün hüquq-mühafizə tədbirlərinin taktikası və strategiyasının koordinasiyası və əlaqələndirilməsi.

Gömrük orqanlarının ən vacib funksiyaları ixrac nəzarəti və malların keyfiyyətinin qiymətləndirilməsi olmalıdır. Gələcək dövrdə maliyyə funksiyası isə gömrük xidmətinin prioritetlərindən biri olaraq qalır.

Azərbaycanın gömrük siyasəti ölkənin iqtisadi və siyasi vəziyyətinə təsir edən bütün amillərin təhlilinə əsaslanmalıdır.

Dissertasiya işi hazırkı mərhələdə gömrük siyasətinin prioritet istiqamətləri müəyyənləşdirir və alətlər təklif edir. Bu alətlərin istifadəsi, Azərbaycanın milli iqtisadiyyatının xarici rəqabətin dağıdıcı təsirindən ağlabatan dərəcədə qorunmasına imkan verəcəkdir.

Verilmiş istiqamət üzrə təkliflər kimi aşağıdakıları göstərmək olar:

- Gömrük əməliyyatları zamanı keyfiyyət standartları yeni tələblərin həyata keçirilməsi zamanı yeni informasiya proqram vasitələrindən istifadə mexanizmini yaratmaq, mövcud olan mexanizmləri modernləşdirmək, gömrük orqanlarına həvalə olunmuş yeni vəzifələrin avtomatlaşdırılması;
- Əsas məlumat mərkəzinin yenidən qurulması, gömrük orqanlarının analitik fəaliyyəti üçün yüksək performanslı sistemlərin inkişafı və həyata keçirilməsi;
- Gömrük siyasətinin qarşısında duran mühüm problemlərdən biri də milli iqtisadiyyatın xarici rəqabətin təsirlərindən müdafiə olunması zamanı qarşıya çıxan çətinlikləri həll etməkdir. Bunun üçün hüquqi bazanın təkmilləşdirilməsi işləri davam etdirilməlidir;

- Yerli istehsalçıların maraqları və onların əmtəələrinin rəqabətqabiliyyətliliyinin artırılması üzrə aparılan tədbirlər, gömrük rüsumlarının səviyyələrinin tənzimlənməsi üzrə əməliyyatlarda mühüm addımlar atılmalıdır;
- Gömrük siyasətində əsas məqsəd xammal və investisiya yönümlü mallara daha effektiv şəraitin qurulması, eləcə də yerli istehsalçıların hüquq və maraqlarının qorunması yönündə olmalıdır. Gömrüyün idarə edilməsi zamanı iqtisadiyyatın investisiya mallarına olan tələbatı da diqqət mərkəzində saxlanılmalıdır.

## İstifadə olunmuş ədəbiyyat

1. A.Ş. Şəkərəliyev 2014- "GÖMRÜK İŞİNİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ" Bakı

2. C.Q. Nuriyev, M.C.Atakişiyev 2009- Gömrük işinin təşkili və idarə edilməsi , Bakı

3. . Məmmədov S.M. və b. "Vergi və gömrük işi" 1996. Bakı,.

4. Paşayev Q. 1997 "Azərbaycanın xarici iqtisadi fəaliyyətinin cinayət və gömrük qanunvericiliyi ilə müdafiəsi", Bakı.

5. Heydərov K.F. 1998 "Gömrük işinin əsasları, gömrük işinin təşkili və texnologiyası", 1-ci cild Azərbaycan Dövlət Nəşriyyatı, Bakı.

6. Nuriyev C., 2000 "Gömrük statistikası", Dərs vəsaiti. Bakı.

7. Nuriyev C.Q. 2000 "Beynəlxalq iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi". Qanun, Bakı.

8. Şəkərəliyev A.Ş., Əliyev A.Ə., Əhmədov S.T. 2003 "Gömrük ekspertizası". Bakı. "Qanun".

9. Heydərov K..F. 2004 Gömrük işinin əsasları. Dərslik. Bakı

10. Heydərov K.F., Əliyev A.Ə., 2006 Gömrük rəsmiləşdirilməsi. Bakı

## Xarici dildə

1. Абрамишвили Г.Г. 1984 Проблемы международного маркетинга. Москва

2. Зыкин И.С. 1994.Внешнеэкономические операции: право и практика. Москва Международные отношения

3. Кочетов Э.Г. 1998Ориентиры внешнеэкономической деятельности. М.: Экономикс.

4.Краткий внешнеэкономический словарь.1984.Москва Международные отношения,.

5. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого Октября (юбилейный статистический ежегодник). Баку: Азернешр, 1987

6. Недужный И.И.1994. Международные торги. Москва Международные отношения,

7. Носнова И.Я. 1995 .Международные валютно-кредитные отношения. Москва Банки и биржи, ЮНИТИ,

8. региональная интеграция азербайджанской республики в рамках содружества независимых государств – Sona Qurbanova 2008, **“Dirçəliş - XXI əsr”**

İnternet mənbələr

1.Современное состояние бизнеса в системе внешнеэкономических связей – unec.edu.az

2.Азербайджан на международной арене – files.preslib.az

3.meclis.gov.az

4.president.gov.az

5.economy.gov.az

6.mie.gov.az

7.elm.az

8.socar.az

9.nba.az

10. http://unec.edu.az/application/uploads/2016/03/Karimli_Xadica.pdf

11. myshared.ru - Таможенная проверка проводится таможенными органами в целях проверки соблюдения лицами требований, установленных таможенным законодательством Таможенного

12. strappedalfreda.blogspot.com - понятие таможенных процедур

# Əlavə 1

**Şəkil1.2 ABŞ-ın idxal üzrə əsas ticarət tərəfdaşları Məhsul və xidmətlərin ticarəti 2016-cı il üzrə (mlrd, $).**




**Mənbə**: (vestifinance.ru –2018)

# Əlavə 2

**Şəkil 1.3 ABŞ-ın ixrac üzrə əsas ticarət tərəfdaşları . Məhsul və xidmətlərin ticarəti 2016-cı il üzrə (mlrd, $).**




**Mənbə**: (vestifinance.ru –2018)

## Əlavə 3

**Şəkil 2.2 İxracatçılara xidmət dəstək alətləri**




**Mənbə**: (myslide.ru - 2018).

## Əlavə 4

**Cədvəl 2.1 İxracatçılara tədqim olunan dəstəklər**

| Qurumlar | Dəstək paketi | Tərkibi |
|---|---|---|
| **TÜRK EXİMBANK** | Reeskont kreditləri | Bu kreditlər bankların yeni kredit və ya nağd tələbatlarını qarşılaya bilmələri məqsədiylə Mərkəz Bankdan tələb etdikləri nağd kreditlərdir. Bu kredit, pul siyasətinin tətbiqində olduqca effektivdir. Mərkəzi bankdan qaynaqlı reeskont kredit, bazarda ən çox qənaətbəxş kredit olması səbəbindən böyük diqqət çəkir. Bu proqram MB –nin Eximbanka həvalə etdiyi 17 mlrd. $ ilə həyata keçirilir. Reeskont krediti 240 günə qədər müddətli olur, mal və xarici valyuta qazandıran xidmət ixracatı ilə məşğul olan şirkətlərə verilir |
| | Göndərilmə sonrası reeskont kreditləri | Bu kredit ixracatçılara yeni və hədəf bazarlarda müəyyən müddətli satış imkanları ilə rəqabət şanslarının artırılmasına məqsədli yönləndirilərək verilir. Qısa müddətli göndərilmədən sonra maliyyə dəstəyi verilir. Bu reeskont kreditində təminat olaraq Bankın sığorta vekseli də qəbul edildiyi üçün banklar heç bir təminata ehtiyac duymadan, bu kreditdən faydalana bilirlər. |
| | Göndərilmədən öncə ixracat krediti | Uzun illərdir ticari banklar vasitəsilə istifadə olunan bu kreditlərin daha geniş ixracatçı kütləsinə çatması məqsədilə ona bənzər digər kreditləri 2015-ci ildən bəri faktorinq şirkətləri vasitəsilə istifadə olundu. |
| | İnvestisiya və müəssisə sərmayəsi krediti | Bu paket ixracata yönəlmək və ya ixrac tutumunu artırmaq üçün maliyyə dəstəyinə ehtiyac duyan şirkətlərin, yeni və ya ixrac tutumunu artıran investisiyalarına 7 ilə qədər kredit verilməsini nəzərdə tutur. |
| | Marka üzrə kredit | Xaricdə mövcud olan və tanınan bir markanın türk ixracatçısı tərəfindən satın alınmasını 10 ilə qədər müddətlə kredit verərək maliyyələşdirir. |
| | Beynəlxalq layihə kreditləri | İxracatçılar və xaricdə fəaliyyət göstərən investorların mallarını satmaq istəyən alıcının maliyyə ehtiyaclarını qarşılamaq üçün bir dəstək. Bu dəstəklə türkiyədə yerləşən şirkətlərin istehlak mallarının ixracı 2 illik, investisiya malı ixracatı və xaricdə fəaliyyət reallaşdırılan layihələr isə 10 illik kreditlə təmin olunur. |
| KOSGEB (kiçik və orta ölçülü müəssisələrə dəstək idarəsi) | İxracat krediti dəstək proqramı | 250- dən az işçisi olan və illik xalis satış hasilatı və ya maliyyə hesabatı 25 mln. tl-yi aşmayan şirkətlərə təqdim edilir. İxracatçı KOBİ- lərə təqdim olunan bu kredit ümumi maksimum limiti 200.000 $ və müddəti 6 ay ilə məhdudlaşır. |

| | | |
|---|---|---|
| İŞ BANKI | İxracat dəstək paketi | Bu paketdə ixracat valyuta kreditləri, TL ixracat kreditləri, keyfiyyət sertifikatı krediti, beynəlxalq sərgilərə qatılmağa dəstək krediti nəzərdə tutulur. |
| **GARANTİ BANK** | İxracata hazırlıq krediti | KOBİ-lərin ixracata hazırlığı məqsədilə onlara ön maliyyə dəstəyinin verilməsi nəzərdə tutulur. |

**Mənbə:** (www.ekonomist.com.tr – 2019 ).

## Əlavə 5

**Şəkil 2.3 Gömrük yoxlaması – Gömrük nəzarətinin forması kimi**




**Mənbə:** ( myshared.ru 2018).

**Əlavə 6**

**Şəkil 2.4 Səyyar gömrük yoxlamasının tətbiq edilmə xüsusiyyətləri**




**Mənbə**: (myshared.ru 2018)

# Əlavə 7

**Cədvəl 2.3Xarici ticarət; mal qrupları üzrə ixrac**

| Göstərici | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| **Diri heyvanlar (*min ABŞ dollar*)** | 5.6 | 141.4 | 26.5 | 79.9 | 124.3 | 298.4 | 557.8 | 1650.4 |
| **Ət və qida üçün yararlı ət əlavələri (*min ABŞ dollar*)** | 75.2 | 43.9 | 0.0 | 0.0 | 172.4 | 20.0 | 57.7 | 1715.9 |
| **Balıqlar və xərçəngkimilər, mollyusklar və digər su onurğasızları (*min ABŞ dollar*)** | 287.8 | 64.9 | 0.0 | 24.0 | 0.0 | 0.0 | 158.2 | 395.6 |
| **Süd məhsulları, quş yumurtası, təbii bal, (*min ABŞ dollar*)** | 45.9 | 15.1 | 375.9 | 1237.8 | 2215.0 | 1579.2 | 2818.7 | 8191.1 |
| **Başqa yerdə adı çəkilməyən heyvan mənşəli məhsullar (*min ABŞ dollar*)** | 132.8 | 391.7 | 279.9 | 509.4 | 794.4 | 445.7 | 622.5 | 653.8 |
| **Canlı ağaclar və digər bitkilər, bitkilərin kökləri, soğanaqları və digər analoji hissələri (*min ABŞ dollar*)** | 0.0 | 36.2 | 14.2 | 25.8 | 74.4 | 158.2 | 563.4 | 388.3 |
| **Tərəvəzlər, meyvəköklülər və kök yumruları (*min ABŞ dollar*)** | 42344.5 | 78307.3 | 55968.6 | 77263.8 | 98919.2 | 91679.7 | 129022.1 | 210089.9 |
| **Yeməli meyvələr və qoz-fındıq, (*min ABŞ dollar*)** | 112484.3 | 152965.2 | 207986.1 | 173508.1 | 192165.3 | 220247.8 | 243755.4 | 292736.7 |
| **Qəhvə, çay, mate (paraqvay çayı) və ədviyyatlar (*min ABŞ dollar*)** | 33360.8 | 32444.2 | 37493.0 | 44381.7 | 31263.4 | 19505.5 | 6197.7 | 10291.0 |
| **Dənli bitkilər (*min ABŞ dollar*)** | 174.7 | 34.5 | 24.5 | 10.6 | 20.5 | 61.3 | 2618.7 | 11.9 |
| **Unüyütmə-yarma sənayesi** | 28.5 | 28.4 | 33.5 | 1119.3 | 136.1 | 199.7 | 61.2 | 59.9 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **məhsulları, səməni, nişastalar, (*min ABŞ dollar*)** | | | | | | | | |
| **Yağlı toxum və bar, digər toxumlar, bar və taxıl, dərman bitkiləri (*min ABŞ dollar*)** | 1846.8 | 4835.6 | 6413.0 | 5274.6 | 5363.0 | 1358.6 | 2880.1 | 3486.8 |
| **Təmizlənməmiş təbii şellak, kitrələr, qatranlar (*min ABŞ dollar*)** | 11.7 | 0.0 | 0.0 | 29.3 | 3069.1 | 2598.8 | 1410.9 | 1146.5 |

**Mənbə**: ( www.stat.gov.az 2017 )

## Əlavə 8

**Şəkil 2.6 2018-ci ilin ilk ayları üzrə 2017-ci ilin uyğun dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə bəzi malların ixracının artım göstəriciləri**

5,9 dəfə
- Elektrik enerjisi

50,9%
- Meyvə-tərəvəz

43,4%
- Pambıq iplik

14,8%
- Qara metallar və onlardan hazırlanan məmulatlar

14,2%
- Çay

7,2%
- Kimya sənayesi məhsulları

5,1%
- Alüminium və ondan hazırlanan məmulatlar

**Mənbə** ( www.stat.gov.az 2018, mart. )

## Əlavə 9

**Cədvəl 3.1 Azərbaycanda gömrük xidmətinin institusionallaşması üzrə tələblər**

| No: | Nizamlanma istiqaməti | Tələbin məzmunu |
|---|---|---|

| | | |
|---|---|---|
| **1** | Məhsulların tədarükünün vahid kompleks şəkildə idarə edilməsi | Gömrük idarəsi gömrük nəzarəti üçün ÜTT – nin vahid təchizat zəncirinin idarə edilməsi üzrə Gömrük tövsiyyələrində göstərilən hərtərəfli prosedurlara riayət etməlidir. |
| **2** | Yüklərin yoxlanması hüququ | Gömrük administrasiyası ölkədən çıxan, tranzit olaraq baş verən ( həmçinin nəqliyyat vasitəsinin bortunda olan) və ya ölkəyə gətirilən yükün yoxlanılması hüququna malik olmalıdır. |
| **3** | Avadanlıqların yoxlanılması zamanı müasir texnologiyalardan istifadə olunması | Qeyri-intruziv yoxlama və radiasiyanın aşkarlanması üçün avadanlıqlar , risklərin qiymətləndirilməsi ilə əlaqədar olaraq istifadə edilməlidir. Bu cür avadanlıqlar yüksək riskli yüklərin və ya konteynerlərin qanuni yoxlanmasının fasiləsiz və operativ olması üçün gərəklidir. |
| **4** | Risklərin idarə edilməsi sistemi | Gömrük administrasiyası potensial təhlükəli malların müəyyənləşdirilməsi və belə bir sistemin avtomatlaşdırılması üçün risk idarəetmə sistemi yaratmalıdır. Bu sistem həmçinin işin səmərəli metodlarının müəyyənləşdirilməsi mexanizmi olmalıdır. |
| **5** | Yüksək riskli yük və ya konteynerlər | Yüksək riskli yük və ya konteynerlərin daşınması elə bir daşınmadır ki, burada yüklərin aşağı səviyyəli riskli olduğu haqqında informasiya yoxdur və təhlükəsizliyi xarakterizə edən məlumat elementlərinə əsaslanan risk qiymətləndirmə üsulu ilə yüksək riskli daşımalar kimi tanınır. |
| **6** | İlkin elektron məlumat | Risklərin adekvat qiymətləndirilməsini təmin etmək üçün, gömrük administrasiyası dərhal yük və ya konteyner daşımaları barədə ilkin elektron məlumat tələb etməlidir. |
| **7** | Məqsədli seçim və kommunikasiya | Gömrük idarələri məqsədli seçimin mümkünlüyünü, eləcə də məqsədli seçim meyarlarının standart dəstinin yoxlanılması və istifadə edilməsi mümkünlüyünü, ünsiyyət və ya məlumat mübadiləsi üçün uyğun mexanizmlər yaratmağın mümkünlüyünü təmin etməlidirlər. |
| **8** | Səmərəlilik göstəriciləri | Gömrük idarələri səmərəlilik göstəriciləri olan statistik hesabatları, o cümlədən, yoxlanmış yüklərin sayı, yüksək riskli yüklərin sayı, yüksək riskli yük daşımaların həyata keçirilmiş yoxlamalarının sayı, qeyri-intruziv texnologiyalardan istifadə vasitəsilə yüksək riskli yüklərin yoxlamalarının sayı, gömrük rəsmiləşdirilməsi müddəti, müsbət və mənfi nəticələri saxlamalıdır. |
| **9** | Limanlarda təhlükəsizliyin qiymətləndirilməsi | Gömrük administrasiyası beynəlxalq təchizat zənciri boyunca malların hərəkətinin təhlükəsizliyini qiymətləndirmək üçün digər səlahiyyətli orqanlarla əməkdaşlıq etməli və meydana gələn zəiflikləri tez bir zamanda aradan qaldırmağı vəzifəsi kimi hesab etməlidir. |
| **10** | Kadrların mənəvi – etik keyfiyyətləri | Kadrların mənəvi – etik normalarına riayət edilməməsi faktlarının qarşısının alınması üzrə proqramların həyata keçirilməsinə təşviq edilməlidir. |
| **11** | Daşınma zamanı təhlükəsizlik yoxlaması | Təhlükəsizliyi təmin etmək məqsədilə, gömrük administrasiyası idxalçı ölkənin əsas tələbi ilə konteynerləri və yüksək riskli yükləri göndərərkən yoxlamalıdır. |

**Mənbə:** (http://tkod.ru/ - В.В. Макрусев, В.А. Черных2017 ci il) .

## Əlavə 10

**Şəkil 1.1. Xarici iqtisadi əlaqələrin təsnifləşdirilməsi**






**Mənbə** ( unec.edu.az 2019)

## Əlavə 11

**Cədvəl 1.1 Gömrük tariflərinin yaradılmasının iqtisadi təsirinin formaları**

**İqtisadi təsir**

| İstehsal təsiri | İstehlakçı təsiri | Büdcə təsiri | Gəlirin yenidən bölüşdürülməsi təsiri | Rəqabətli təsir | Ölkənin ödəniş balansına təsir | Ticarət baxımından təsir |
|---|---|---|---|---|---|---|
| Yerli istehsalçıların qorunması | İdxal olunmuş malların yüksək qiymətləri onların istehlakını azaldır | Gömrük gəlirləri dövlət büdcəsinin gəlirlərindən biridir | İdxal olunmuş mallar tərəfdən rəqabətin azaldılması daha yüksək qiymətlər təyin etməyə və yerli məhsullardan daha çox mənfəət əldə etməyə imkan verir | Gömrük tarifinin səviyyəsindən asılı olaraq rəqabət intensivliyi, təkrar istehsal prosesinə birmənalı təsir göstərə bilər. | İdxaldakı azalma səbəbindən digər ölkələrə daha az edilən ödənişlər | İdxalatçı ölkənin bazarında idxal olunan məhsulların rəqabət qabiliyyətini azaldır. İxracatçını satış qiymətlərini azaltmağa vadar edir. |

**Mənbə**: (Heydərov K.F ,,1998,səh 90)

# Əlavə 12

**Şəkil 2.5 Gömrük nəzarətinin növləri**




**Mənbə:** (strappedalfreda.blogspot.com 2018 ci il).

## Cədvəllərin siyahısı

Cədvəl 1.1 Gömrük tariflərinin yaradılmasının iqtisadi təsirinin formaları.88
Cədvəl 1.2 ABŞ-ın xarici ticarət tərəfdaşları……………………………...…23
Cədvəl 2.1 İxracatçılara tədqim olunan dəstəklər........................................78
Cədvəl 2.2 Azərbaycanın 2017-ci il üzrə idxalat və ixracat həcmləri..........48
Cədvəl 2.3 Xarici ticarət; mal qrupları üzrə ixrac...................................82
Cədvəl 3.1 Azərbaycanda gömrük xidmətinin institusionallaşması üzrə tələblər .........................................................................................85
Cədvəl 3.2 2018-ci il üzrə xarici ticarətin gömrük statistikası.....................64

## Şəkillərin siyahısı

Şəkil 1.1. Xarici iqtisadi əlaqələrin təsnifləşdirilməsi................................86
Şəkil1.2 ABŞ-ın idxal üzrə əsas ticarət tərəfdaşları.Məhsul və xidmətlərin ticarəti 2016-cı il üzrə (mlrd, $)..............................................................75
Şəkil 1.3 ABŞ-ın ixrac üzrə əsas ticarət tərəfdaşları. Məhsul və xidmətlərin ticarəti 2016-cı il üzrə (mlrd, $)..............................................................76
Şəkil 1.4 2006-2017-ci illər ərzində Azərbaycanda ümumi neft hasilatı (mln,ton).........................................................................................30
Şəkil 1.5 Azərbaycan: qeyri-neft ixracının əsas istiqamətləri ( 2017-ci ilin ilk 6 ayı üzrə verilənlər əsasında, mln. dollar).................................................33
Şəkil 2.1 Gömrük işinin elementləri............................................................39
Şəkil 2.2 İxracatçılara xidmət dəstək alətləri..............................................77
Şəkil 2.3 Gömrük yoxlaması – Gömrük nəzarətinin forması kimi...............80
Şəkil 2.4 Səyyar gömrük yoxlamasının tətbiq edilmə xüsusiyyətləri...........81
Şəkil 2.5 Gömrük nəzarətinin növləri..........................................................89
Şəkil 2.6 2018-ci ilin ilk ayları üzrə 2017-ci ilin uyğun dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə bəzi malların ixracının artım göstəriciləri................84
Şəkil 3.1 Dövlət Gömrük Komitəsinin Strukturu…………………….....60